# BANK XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİNƏ DAİR ÜMUMİ ŞƏRTLƏR TOPLUSU

Bir tərəfdən Azərbaycan Respublikasının qanunvericiliyi, Mərkəzi Bankın lisenziyası və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra Bank adlandırılacaq) və digər tərəfdən Müştəri, birlikdə Tərəflər adlandırılacaqlar, aşağıdakılar barədə Bank xidmətlərinin göstərilməsinə dair ümumi şərtlər toplusunu (bundan sonra "Müqavilə" və ya "Şərtlər Toplusu" adlandırılacaq) bağladılar.

## I. MÜQAVİLƏNİN PREDMETİ

1. Bu Müqavilədə, Müştərinin müraciəti əsasında ona bank hesabının açılması, depozitin yerləşdirilməsi, maliyyələşdirilməsi (kredit, kredit xətti və ya overdraft), ödəniş kartlarının verilməsi və bu xidmətlərin göstərilməsindən irəli gələn şərtlər öz əksini tapmışdır.
2. Hazırki Müqavilədə həmçinin, Tərəflər arasında elektron daşıyıcılar vasitəsi ilə bank xidmətləri üzrə sərəncamların verilməsi və qəbulu, bu sərəncamların icrası ilə bağlı elektron imzanın qəbuluna dair tələblər öz əksini tapmışdır.
3. Bu Müqavilənin imzalanması Bank tərəfindən Müştəriyə bu Müqavilə ilə tənzimlənməyən digər xidmətlərin göstərilməsini məhdudlaşdırmır və həmin münasibətlərə şamil edilmir.
4. Yuxarıda qeyd olunan xidmətlərdən hər birinin Bank tərəfindən Müştəriyə təqdim olunması üçün bu Müqavilədən başqa müvafiq Ərizə formalarının da Müştərinin özü və ya səlahiyyətli nümayəndəsi tərəfindən doldurularaq Banka təqdim olunması tələb olunur. Müqavilə ilə müvafiq xidmətin göstərilməsi üçün Ərizə formalarında qeyd edilməsi nəzərdə tutulan məlumatların İnternet Bankçılıq və ya Mobil bankçılıq xidməti vasitəsilə Müştəri üçün fərdi qaydada yaradılmış modullar vasitəsilə Müştəri tərəfindən təqdim edildikdə bu qaydada təqdim olunmuş sifariş "Ərizə" ilə eyni hüquqi qüvəyə malik olacaq. Müştərinin Ərizəsinin qəbul edilməsi Bankın imzası, yazılı məlumatı və ya xidməti təqdim etmək hərəkəti əsasında iradəsinin bəyanı ilə təsdiq oluna bilər.
5. Müştəriyə yalnız müvafiq Ərizə formasında qeyd etdiyi xidmət təqdim oluna bilər.
6. Hər bir bank xidməti üzrə həmin xidmətin başlama və bitmə tarixləri, faiz, xidmətin göstərilmə yeri və sair şərtlər qeyd olunan Ərizə formalarında öz əksini tapacaq.
7. Hər bir bank xidməti üzrə Xidmət haqqı Bankın qüvvədə olan Tariflər kitabçasında qeyd olunur.
8. Bu Müqavilə çərçivəsində tərəflərin imzaladığı bütün Ərizə formaları bu Müqavilənin ayrılmaz hissəsini təşkil edir. Tərəflər arasında imzalanmış hər hansı Ərizə forması ilə hazırki Müqavilənin şərtləri arasında uyğunsuzluq olarsa, Ərizə formasında qeyd olunan şərtlər üstünlük təşkil edəcək.
9. Tərəflər arasında daha əvvəl imzalanmış və qüvvədə olan digər müqavilələr mövcud olduğu halda, bu Müqavilənin imzalanması həmin müqavilələr üzrə yaranmış münasibətlərə də tətbiq olunur edir və həmin müqavilələr ilə bu Müqavilə arasında ziddiyyət yarandıqda bu Müqavilənin şərtləri üstünlük təşkil edir.
10. Bu Müqavilə üzrə xidmətlər yetkinlik yaşına çatmayan şəxslərə qanunvericiliyin tələbləri nəzərə alınmaqla valideynlərin razılığı olmadan təqdim edilmir.

## II. BANK HESABI

### 1. Cari hesab barədə məlumat

1.1. Bank, Müştərinin müraciəti əsasında ona "Bank hesabının açılması üçün ərizə" formasında göstərilən valyuta(lar)da cari hesab açmağı, onun tapşırığı ilə Azərbaycan Respublikası qanunvericiliyi, Mərkəzi Bankın və Maliyyə bazarlarına nəzarət orqanının normativ sənədləri ilə nəzərdə tutulmuş bütün hesablaşma və kassa əməliyyatlarını həyata keçirməyi, yəni açılmış

hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba mədaxil etməyi, hesabdan müvafiq məbləğlərin köçürməyi və verməyi, hesab üzrə digər əməliyyatların aparılmasına dair Müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürür. Müştəri isə bunun müqabilində Bankın qüvvədə olan tariflərinə uyğun olaraq müvafiq xidmət haqqını ona ödəməyi öhdəsinə götürür.

1.2. Müqavilə qüvvəyə minməzdən əvvəl açılmış hesablara da bu Müqavilədə qeyd olunan qaydalar tətbiq edilir, habelə onların açılması ilə əlaqədar bağlanmış müqavilələrdə bu Müqavilə ilə ziddiyyət təşkil edən şərtlər olduqda, bu Müqavilə üstünlük təşkil edir.

1.3. Hesab üzrə Müştəri sərəncamları həm kağız, həm də elektron daşıyıcılarda verilə və qəbul oluna bilər. Sərəncamların elektron daşıyıcılarda verilməsi ilə bağlı Tərəflər arasında yaranan münasibətlər Müqavilənin VII bölümü ilə tənzimlənir.

## 2. Bank hesabı xidmətinin göstərilməsi ilə bağlı tərəflərin hüquq və vəzifələri

*2.1. Bankın vəzifələri:*

2.1.1. Müştəriyə hesablaşma-kassa xidməti üzrə kompleks xidmət təqdim etmək. Bura Müştərinin hesablarının açılması, aparılması və onun tapşırığı ilə Bankın lisenziyasında nəzərdə tutulmuş bütün hesablaşma və kassa əməliyyatlarının həyata keçirilməsi daxildir.

2.1.2. Bankın qüvvədə olan tariflərinə uyğun olaraq xidmət haqlarının ödənilməsi şərtilə Müştəriyə bilavasitə hesablaşma-kassa xidmətinə aid olan və ya aid olmayan digər xidmətləri (kreditləşdirmə, xarici valyutanın alınıb satılması, və s.) göstərmək.

2.1.3. Müştərinin tapşırığı ilə Azərbaycan Respublikası Mərkəzi Bankının və Maliyyə Bazarlarına Nəzarət orqanının müvafiq qaydaları və Bankın daxili qayda və prosedurlarına ciddi riayət etməklə hesablaşma əməliyyatlarını vaxtı-vaxtında və düzgün yerinə yetirmək.

2.1.4. Qanunvericiliklə nəzərdə tutulmuş məqsədlər üçün ona hesablaşma hesabından nağd pul vəsaiti vermək. Bu halda Müştərinin hesabından pul vəsaitlərinin silinməsi ardıcıllığına dair qanunvericiliyin tələbləri nəzərə alınır.

2.1.5. Müştərinin hesabında olan pul vəsaitinə dair əməliyyatı yalnız onun tapşırığı, yaxud onun razılığı ilə həyata keçirmək. Bank tərəfindən Müştərinin hesabından akseptsiz vəsaitin silinməsi yalnız qanunvericilik və Müqavilənin II.2.2.2. və II.2.2.4. bəndlərində göstərilən hallarda həyata keçirilir.

2.1.6. Nağd pulun qəbulu və verilməsini Mərkəzi Bankın qaydalarına və normativ xarakterli aktlarına və Bankın daxili qayda və prosedurlarına ciddi riayət etməklə həyata keçirmək.

2.1.7. Hesabda aparılmış əməliyyatlar üzrə Müştəriyə hesabdan çıxarış vermək.

2.1.8. Bank, hesab üzrə məlumatların və əməliyyatların sirrinin mühafizəsinə təminat verir. Müştərinin razılığı olmadan bu məlumatlar üçüncü şəxslərə yalnız qanunvericiliklə xüsusi olaraq nəzərdə tutulmuş hallarda verilə bilər.

2.1.9. Müştəriyə hesablar, bank avadanlığı, sənədlərin dövriyyəsi qaydaları və hesablaşma-kassa xidmətinə bilavasitə aidiyyəti olan digər məsələlər üzrə məsləhətlər vermək;

2.1.10. Müştərinin ödəniş sərəncamını icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq icra etmək;

2.1.11. Müştərinin xeyrinə ödəniş terminalı vasitəsilə Banka daxil olan pul vəsaitini 5 iş günündən gec olmayaraq, digər hallarda isə vəsaitin daxil olduğu əməliyyat günü Müştərinin hesabına mədaxil etmək və (və ya) pul vəsaitinin istifadəsinə imkan yaratmaq;

2.1.12. Müştərinin tələbi ilə təqvim ayı müddətində bir dəfə ödəniş hesabı üzrə aparılan ödəniş əməliyyatları barədə "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanunun 17.1-ci maddəsində nəzərdə tutulan məlumatları kağız və ya digər davamlı daşıyıcıda ödənişsiz olaraq Müştəriyə təqdim etmək;

2.1.13. "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanunun 16-cı maddəsi ilə nəzərdə tutulan məlumatları əməliyyat həyata keçirilməzdən əvvəl Müştəriyə təqdim etmək və ya əlçatanlığını təmin etmək;

2.1.14. Bu bölmənin 2.2.15 maddəsində nəzərdə tutulan sübutları 5 (beş) iş günündən gec olmayaraq (ödəniş alətləri ilə ölkə xaricində aparılan əməliyyatlarda isə iştirakçısı olduğu ödəniş sisteminin fəaliyyətinə dair qaydalar ilə müəyyən edilmiş müddətdə) təqdim etmək, belə məlumatları təqdim edə bilmədikdə isə ödəniş əməliyyatının məbləğini ödəyiciyə növbəti iş günündən gec olmayaraq geri ödəmək;

2.1.15. Ödəyici tərəfindən verilən ödəniş sərəncamının icra olunmaması, səhv icra edilməsi, həmçinin pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsi halında müvafiq məbləği, habelə Müştəridən bununla bağlı tutulmuş xidmət haqqını dərhal Müştərinin ödəniş hesabına bərpa etmək, bir şərtlə ki, bu hal Müştərinin ödəniş sərəncamında səhv göstərilmiş məlumatlara görə baş verməsin;

2.1.16. İcra edilməmiş, səhv icra edilmiş ödəniş əməliyyatı üzrə və pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsi üzrə Müştərinin tələbi əsasında xidmət haqqı tələb etmədən ödəniş əməliyyatının icrasını izləmək və bu haqda Müştərini məlumatlandırmaq. Bu halda vəsait alana xidmət göstərən ödəniş xidməti təchizatçısı Banka müvafiq məlumatları təqdim etməlidir;

2.1.17. Müştəriyə vəsait göndərən şəxsə xidmət göstərən ödəniş xidməti təchizatçısına qanunla qadağan olunmayan məlumatları təqdim etmək;

2.1.18. Müştərinin vəsait göndərdiyi şəxsə xidmət göstərən ödəniş xidməti təchizatçısı tərəfindən göndərilən ödəniş sərəncamının icra edilməməsi və ya səhv icra edilməsi halında səhv icra edilmiş ödəniş sərəncamı üzrə vəsaitin dərhal ödəyicinin ödəniş hesabına bərpa edilməsini və ya tələb olunduqda ödəniş sərəncamının düzgün icrasını təmin etmək;

2.1.19. Müştəri vəsait alan qismində digər ödəniş xidməti təchizatçısına ödəniş sərəncamı verdikdə, sonuncu tərəfindən icra edilməmiş və ya səhv icra edilmiş ödəniş əməliyyatı üzrə Müştərinin tələbi əsasında xidmət haqqı tələb etmədən ödəniş əməliyyatının icrasını izləmək və bu haqda Müştərini məlumatlandırmaq.

2.1.20. Vəsait alan tərəfindən verilən ödəniş sərəncamı üzrə Müştərinin müəyyən etdiyi ödəniş məbləğindən yüksək məbləğdə ödəniş əməliyyatı apardığı təqdirdə artıq ödənilmiş məbləği Müştərinin müraciəti daxil olduqdan sonra 5 (beş) iş günü müddətində geri ödəmək və ya imtinanın səbəbləri haqqında əsaslandırılmış məlumatı Müştəriyə təqdim etmək.

2.1.21. Ehtimal olunan və ya baş verən fırıldaqçılıq hadisəsi və ya təhlükəsizlik təhdidləri zamanı Müştərini sonuncunun qeydiyyat ərizəsindəki əlaqə vasitələrindən hər hansı biri ilə və ya Müştəriyə təqdim olunan xidmət portalları vasitəsilə məlumatlandırmaq

*2.2. Bankın hüquqları:*

2.2.1. Müştərinin qüvvədə olan qanunvericilik, habelə Bank qaydaları, hesablaşma sənədlərinin rəsmiləşdirilməsi proseduru və onların Banka təqdim edilməsi müddətini pozduğunu sübut edən dəlillər olduqda hesablaşma-kassa əməliyyatlarının həyata keçirilməsindən imtina etmək.

2.2.2. Müştərinin hesabındakı pul vəsaiti ilə aparılan əməliyyatlar üzrə özünün qüvvədə olan xidmət tarifləri ilə müəyyənləşdirilmiş məbləğdə xidmət haqqını Müştərinin hesabından mübahisəsiz silmək.

2.2.3. Müştərini azı 30 (otuz) təqvim günü əvvəlcədən yazılı xəbərdar etməklə birtərəfli qaydada xidmət tariflərinə dəyişiklik etmək. Dəyişikliklərin heç biri Müştərinin vəziyyətini ağırlaşdırmadığı, habelə Müştəri dəyişikliyi yazılı qaydada təsdiq etdiyi halda isə dəyişiklik dərhal qüvvəyə minir. Həmçinin valyuta mübadiləsi məzənnəsində edilən dəyişikliklər xəbərdarlıq müddəti tətbiq olunmadan qüvvəyə minir.

2.2.4. Kredit, faizlər, komissiyalar, Banka ödənilməli olan ödənişlər, Bankın reqres qaydada yönəltdiyi tələblər, müqavilə münasibətləri və qanunvericiliklə müəyyən olunan qaydada yaranmış borcların (tələblərin) ödənilməsinə yönəldilən pul vəsaitlərini Müştərinin Bankda mövcud olan bütün hesablarından akseptsiz qaydada silmək.

2.2.5. Müştərinin hesabına səhvən daxil olmuş məbləğləri onu yazılı qaydada xəbərdar etməklə hesabından silmək. Yazılı xəbərdarlığa məktub, elektron əlaqə vasitəsi (e-mail), faks, SMS məlumatlandırma və digər vasitələrlə göndərilən xəbərdarlıq aiddir.

2.2.6. Qanunvericilikdə baş vermiş dəyişiklik və ya Bank tərəfindən Müştəri haqqında əlavə məlumat əldə etmək zərurəti yarandığı hallarda tələb olunan əlavə sənədlərin təqdim edilməsini Müştəridən tələb etmək.

2.2.7. Müştəri tərəfindən təhvil verilən nağd pulların yenidən sayılması və ya çeşidlənməsi nəticəsində kənarlaşma (artıq və ya əksik gəlmə, ödəmə qabiliyyəti olmayan, saxta pul və s.) aşkar edildikdə, yaranan fərq məbləğini Bankın Əməliyyat departamentinin tərtib etdiyi akta əsasən Müştərinin hesabında müvafiq düzəliş etmək.

2.2.8. Müştərinin hesabında 1 (bir) il ərzində 1 (bir) AZN və ya ekvivalentindən az vəsait olduqda və ya 1 (bir) ildən artıq müddətə hesab üzrə heç bir əməliyyat aparılmadıqda və digər hallarda, o cümlədən Bankın daxili qərarına əsasən birtərəfli qaydada bank hesabını bağlamaq.

2.2.9. Bank hesabı üzrə həyata keçirilən əməliyyatın (istənilən növ mədaxil və/və ya məxaric) valyutası həmin hesabın valyutasından fərqli valyutada olduqda, əməliyyatın icra edildiyi günə olan Bankın kommersiya məzənnəsi və Bankın qüvvədə olan tariflərinə uyğun şəkildə müvafiq hesabın və ya əməliyyatın valyutasına mübadilə edərək əməliyyatı həyata keçirmək.

2.2.10. Müştəridən tələb etdiyi hər hansı sənəd və/və ya məlumat Müştəri tərəfindən Bankın qeyd etdiyi tarixdə tam və düzgün şəkildə təqdim olunmadığı halda hər təqdim olunmayan sənədə və/və ya məlumata görə öz daxili tariflərinə əsasən və ya qanunvericilik əsasında Banka belə sənədin və/və ya məlumatın təqdim olunmamasına görə Banka tətbiqi nəzərdə tutulmuş sanksiya həddində cərimə tətbiq etmək. Bu halda sənəd və/və ya məlumat təqdim olunanadək Müştərinin bank hesabı üzrə əməliyyatları məhdudlaşdırmaq, habelə bu Müqaviləyə və Müştəriyə göstərdiyi xidmətlərə birtərəfli xitam vermək;

2.2.11. Müştərinin hər hansı öhdəliyini lazımınca yerinə yetirməməsi nəticəsində Bank səlahiyyətli dövlət orqanı tərəfindən sanksiya tətbiqi halları daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq hər hansı zərərə məruz qalarsa, məruz qaldığı zərəri reqres qaydada Müştəridən tələb etmək

2.2.12. Müştəriyə xidmət tariflərini, onun zərurətindən irəli gələrək daha əlverişli şərtlərlə təqdim etmək məqsədilə onun barədə informasiya resurslarından məlumatlarını toplamaq.

2.2.13. Müştərinin banka təqdim etdiyi sənəd və/və ya məlumatlarda qeyri-dürüst, təhrif olunmuş və ya ziddiyyətli məlumatlar aşkarlandıqda, Müştəri bu bölmənin 3.13 bəndinin tələblərini pozduqda, hesab üzrə şübhəli əməliyyat aparıldıqda və/və ya hesab sahibinin özü, yaxud ona aidiyyatı şəxslər barəsində hər hansı hüquq pozuntusu üzrə araşdırma aparıldıqda, müştərinin apardığı əməliyyata(lar) qanunvericiliyin tələblərinə zidd olduqda hesabı bloklaşdırmaq, hesab üzrə əməliyyatlara məhdudiyyət qoymaq, habelə hesabı birtərəfli qaydada bağlamaq;

2.2.14. Ödəniş alətinin təhlükəsizliyinin təmin olunması, ödəniş alətinin dələduzluq məqsədilə və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasının qarşısının alınması və ya ödəyicinin kredit xətti ayrılmış ödəniş alətləri üzrə öhdəliklərini yerinə yetirə bilməməsi təhlükəsinin qarşısının alınması məqsədilə ödəniş alətini bloklaşdırmaq;

2.2.15. Avtorizə edilməmiş ödəniş əməliyyatı haqqında Müştəridən qanunvericiliklə müəyyən edilmiş müddət ərzində bildirişi aldıqdan sonra ödəniş əməliyyatının autentifikasiya olunduğunu, düzgün qeydə alındığını, ödəniş əməliyyatı üzrə məbləğin ödəniş xidməti istifadəçisinin müəyyən etdiyi ödəniş hesabına mədaxil edildiyini və ödəniş əməliyyatının texniki nasazlıq və ya ödəniş xidməti təchizatçısının digər nöqsanı nəticəsində təsirə məruz qalmadığını sübut edən məlumatları 5 (beş) iş günündən gec olmayaraq (ödəniş alətləri ilə ölkə xaricində aparılan əməliyyatlarda isə iştirakçısı olduğu ödəniş sisteminin fəaliyyətinə dair müvafiq qaydalar ilə müəyyən edilmiş müddətdə) təqdim etmək. Əks halda ödəniş əməliyyatının məbləğini, bu ödəniş əməliyyatının icrası üçün ödəyicidən tutulan bütün xidmət haqları ilə birgə Müştəriyə növbəti iş günündən gec olmayaraq geri ödəmək.

*2.3. Müştərinin vəzifələri:*

2.3.1. Banka təqdim olunan tapşırıqların AR Mərkəzi Bankının və Maliyyə bazarlarına nəzarət orqanının qüvvədə olan normativ sənədlərinə və Bankın daxili qaydalarına uyğunluğunu təmin etmək.

2.3.2. Hesabın açılması üçün Banka təqdim edilmiş sənədlərdəki məlumatlarda olan bütün dəyişikliklər haqqında Bankı 3 (üç) iş günü ərzində yazılı qaydada xəbərdar etmək.
2.3.3. Hesabın açılması üçün Banka təqdim olunan sənədlərdəki məlumatların dəqiqliyini təmin etmək.
2.3.4. Bank tərəfindən bu bölmənin 2.2.6-cı yarımbəndinə uyğun olaraq əlavə sənədlər tələb edildikdə, həmin sənədləri ona təqdim etmək.
2.3.5. Bank qarşısında hər hansı bir icra olunmamış öhdəliyi (kredit ödənişi, ipoteka və/və ya girovla bağlı xərclər və s.) yarandıqda, həmin borcun öz hesabından mübahisəsiz (akseptsiz) qaydada silinməsinə razılıq vermək.
2.3.6. Hesabına səhvən vəsait(lər) daxil olduqda, bu barədə Bankı dərhal məlumatlandırmaq və həmin vəsaiti Banka geri qaytarmaq.
2.3.7. Bu bölmənin 2.2.7. yarımbəndində göstərilən halda baş verdikdə Bankın tərtib etdiyi müvafiq aktı mübahisəsiz qəbul etmək.
2.3.8. Bankın qüvvədə olan tarifləri ilə xidmət haqlarını Banka ödəmək;
2.3.9. Bankın tələb etdiyi sənədləri vaxtında, tam və düzgün şəkildə Banka təqdim etmək.
2.3.10. Ödəniş alətindən ödəniş alətinin emissiya və istifadəsi şərtlərinə uyğun olaraq istifadə etmək;
2.3.11. Ödəniş alətini əldə etdikdən dərhal sonra onun fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarının təhlükəsiz saxlanmasını təmin etmək;
2.3.12. Ödəniş alətinin itirilməsini, oğurlanmasını və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasını müəyyən etdikdə Bankı dərhal məlumatlandırmaq;
2.3.13. Ödəniş əməliyyatının icrasından sonra 6 (altı) ay müddətindən gec olmayaraq hər hansı avtorizə edilməmiş və ya səhv icra olunmuş ödəniş əməliyyatlarını müəyyən etdikdə bu barədə ödəniş xidməti təchizatçısını dərhal məlumatlandırmaq;
2.3.14. Bu bölmənin 2.1.20 maddəsindən irəli gələrək belə hal baş verdiyi təqdirdə, Bankı 2 (iki) ay ərzində məlumatlandırmaq.

*2.4. Müştərinin hüquqları:*

2.4.1. Qüvvədə olan qanunvericiliklə müəyyən olunmuş qaydada hesabında olan pul vəsaitinə müstəqil olaraq sərəncam vermək.
2.4.2. Hesablaşma-kassa xidməti üzrə Banka tapşırıq vermək, məlumat istəmək, onun yerinə yetirdiyi tapşırıqlar üzrə hesabat tələb etmək.
2.4.3. Birbaşa debitləşmə alətindən istifadə etdikdə ən geci pul vəsaitinin ödəniş hesabından silinməsi üçün müəyyən etdiyi gündən əvvəlki iş gününün sonunadək ödənişin həyata keçirilməsi üzrə verdiyi sərəncamı geri götürmək;
2.4.4. Təqvim ayı müddətində bir dəfə ödəniş hesabı üzrə aparılan ödəniş əməliyyatları barədə "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanunun 17.1-ci maddəsində nəzərdə tutulan məlumatları kağız və ya digər davamlı daşıyıcıda ödənişsiz olaraq Bankdan tələb etmək;

## 3. Cari hesabın açılması və hesab üzrə əməliyyatların aparılması qaydaları

3.1. Hesabın açılması üçün Müştəri Banka qanunvericilik və bankdaxili qaydalarda nəzərdə tutulan sənədləri təqdim edir.
3.2. Sənədlər Bank qaydaları ilə müəyyənləşdirilmiş şərtlərə uyğun olduqda Bank Müştəriyə onun müraciətinə "Bank hesabının açılması üçün ərizə" formasında göstərilən valyuta(lar)da cari hesab açır.
3.3. Qanunvericilikdə müəyyən edilmiş hallar istisna olmaqla, Müştərinin hesabı üzrə sərəncam vermək hüququ yalnız Müştərinin özü/qanuni nümayəndəsi və ya onun müvəkkil etdiyi şəxsə məxsusdur.
3.4. Müştəri, Banka təqdim etdiyi tapşırıqlarda düzəliş, qeyri-dəqiq və ikimənalı ifadələrə yol verməməlidir. Belə halların baş verdiyi halda Bank həmin tapşırıqları icra etməməkdə haqlıdır.

3.5. Hesabın kreditləşməsi (overdraft) nəzərdə tutulmadığı hallarda, Müştərinin hesabı üzrə əməliyyatlar onun həmin hesabda olan vəsait qalığı həddində aparılır (texniki overdraft halı istisna olmaqla).

3.6. Hesab üzrə minimum qalıq məbləği (nəzərdə tutulduğu halda) və bütün hesablaşma-kassa xidməti üzrə xidmət haqqı Bankın qüvvədə olan tariflərinə uyğun olaraq müəyyənləşdirilir.

3.7. Müştəri Banka təqdim etdiyi tapşırıqların qanunvericilik və bankdaxili qaydalara uyğun olmasına cavabdehdir. Belə uyğunsuzluğun müəyyən olunduğu halların nəticəsi üçün Bank heç bir məsuliyyət daşımır.

3.8. Müştərinin tapşırıqlarının yerinə yetirilməsi müqabilində Bank müvafiq xidmət haqqını Müştərinin hesabından silir. Həmçinin, ödəniş tapşırığı ("kredit köçürməsi" və "ödəniş tapşırığı" eyni məna ifadə edir) digər müxbir banklar tərəfindən icra edildikdə Müştərinin ödənişi ilə əlaqədar Banka ünvanlanan komplayns sorğuları müqabilində müxbir banklar tərəfindən tətbiq olunan xidmət haqqını Bank akseptsiz qaydada Müştərinin hesabından tutur.

3.9. Hesab üzrə sərəncam hüququ Müştərinin təqdim etdiyi imza və möhür nümunələri vərəqəsində qeyd olunan şəxslər tərəfindən həyata keçirilir. İmza və möhür nümunələri vərəqəsində iki və ya daha çox şəxsin imzası (birinci – A və/və ya ikinci – B qismində) qeyd olunduqda, həmin imzaların tək və ya birlikdə istifadəsi, həmçinin Müştərinin seçiminə əsasən aparılan əməliyyatlar üzrə limitlərinin müəyyən olunması qaydası İmza və möhür nümunəsi və ya "Bank hesabının açılması üçün ərizə" forması ilə tənzimlənir.

3.10. Hesab üzrə sərəncam hüququ müvəqqəti olaraq başqa birinə ötürüldükdə, həmin şəxs üçün ayrıca imza nümunəsi vərəqəsi yaradılır və bu vərəqənin müvafiq bölməsində onun səlahiyyət müddəti qeyd olunur. Həmin müddət bitdikdə, imza nümunəsi vərəqəsi qüvvədən düşmüş hesab edilir.

3.11. Müştərinin xeyrinə Banka daxil olan pul vəsaiti həmin əməliyyat günü Müştərinin ödəniş hesabına mədaxil edilməli və (və ya) pul vəsaitinin istifadəsinə imkan yaradılmalıdır.

3.12. Müştərinin Bankda olan istənilən bank hesabı üzrə həyat keçirilən əməliyyatın (istənilən növ mədaxil və/və ya məxaric) valyutası həmin hesabın valyutasından fərqli valyutada olduqda, əməliyyat Müştəridən əlavə razılıq alınmadan əməliyyatın Bank tərəfindən (vəsaitin hesaba mədaxili və/və ya silinməsi) icra edildiyi günə olan Bankın kommersiya məzənnəsi və Bankın qüvvədə olan tariflərinə uyğun şəkildə Bank tərəfindən müvafiq olaraq hesabın və ya əməliyyatın valyutasına mübadilə olunaraq həyata keçirilir.

3.13. Müştərinin hesabı bağlandıqda Müştəri vəsaiti Bankın kassasından ala bilər və ya vəsaitin digər bank hesabına köçürülməsi üçün ödəniş tapşırığı verə bilər. Müştərinin özünə, ona aidiyyatı olan şəxslərə, rezidenti olduğu və ya hər hansı əlaqəsi olduğu ölkəyə Azərbaycan Respublikası, hər hansı digər dövlət və ya hər hansı beynəlxalq və/və ya regional təşkilat tərəfindən sanksiya qoyulduqda həmin sanksiyaların və qanunvericiliyin tələblərindən irəli gələn hər hansı məhdudiyyət olmadıqda həmin vəsait yuxarıdakı üsullarla təqdim edilə bilər. Yuxarıda qeyd edilən sanksiya və/və ya qanunvericilikdən irəli gələn hər hansı məhdudiyyət olduqda Müştəriyə Bank tərəfindən həmin vəsaitlə bağlı qeyd olunan sanksiyalar və/və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada tədbirlər tətbiq oluna bilər.

3.14. Müştəri qiymətli kağızların əldə edilməsi məqsədi ilə köçürmələr etdikdə (bu məqsədlə vəsaitin xarici maliyyə institutunda açılmış xüsusi hesaba köçürülməsi tələb olunduqda, həmin hesabdan vəsaitlərin yalnız qiymətli kağızlar bazarında əməliyyatların həyata keçirilməsi üçün istifadə olunacağına məsuliyyət daşıyır.

3.15. Müştəri ödəniş sərəncamı verdikdə, ödəniş əməliyyatı avtorizə edilmiş hesab olunur.

3.16. Müştəri ödəniş sərəncamından "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanunun 28 -ci maddəsi ilə müəyyən edilmiş anadək istənilən vaxt imtina edilə bilər. Dövri ödəniş əməliyyatlarının icrası üzrə verilmiş sərəncamdan imtina nəticəsində ödəyicinin seçimindən asılı olaraq ancaq icra vaxtı çatmış əməliyyat və ya bütün növbəti ödəniş əməliyyatları avtorizə edilməmiş hesab edilir və icra olunmur.

3.17. Ödəniş sisteminə göndərilən ödəniş sərəncamı ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilən andan gerigötürülməz hesab olunur.
3.18. Müştəri Bank ilə ödəniş sərəncamının icra olunması üçün müəyyən günü razılaşdırdıqda, Müştəri ödəniş sərəncamını ən geci razılaşdırılmış gündən əvvəlki iş gününün sonunadək geri götürə bilər.
3.19. Ödəniş əməliyyatı vasitəçi tərəfindən başlanıldığı halda, Müştəri vasitəçiyə ödəniş əməliyyatının başladılmasına razılıq verdikdən sonra ödəniş sərəncamını geri götürə bilməz.
3.20. Birbaşa debitləşmə alətindən istifadə edildikdə ödəyici ən geci pul vəsaitinin ödəniş hesabından silinməsi üçün müəyyən etdiyi gündən əvvəlki iş gününün sonunadək ödənişin həyata keçirilməsi üzrə verdiyi sərəncamı geri götürə bilər.
3.21. Ödəniş sərəncamının geri götürülməsi üzrə xidmət haqqı Bankın daxili tarifləri ilə nəzərdə tutula bilər.
3.22. Bank ödəniş sərəncamı qüsurlu olmadıqda, habelə Müştəri ilə bağlanılmış bu və ya digər müqavilə ilə müəyyən edilmiş bütün şərtlər yerinə yetirildikdə avtorizə edilmiş ödəniş sərəncamını icraya qəbul edir.
3.23. Avtorizə edilmiş ödəniş sərəncamı əməliyyat günündən sonra təqdim olunduqda ödəniş sərəncamı növbəti əməliyyat günü icraya qəbul edilmiş hesab olunur.
3.24. Ödəniş sərəncamında həmin sərəncamın icrası üçün fərqli müddət razılaşdırıla bilər. Razılaşdırılan müddət ödəniş sərəncamının icra müddəti hesab edilir və həmin gün icra edilir. Bu müddət qeyri-iş gününə düşdükdə, ödəniş sərəncamının icra müddəti növbəti iş günü hesab edilir.

## 4. Bank hesabı xidmətinin göstərilməsi ilə bağlı xüsusi şərt

4.1. Müştərinin Azərbaycan xaricində hər hansı digər dövlətə aid vergi rezidentliyi olduğu təqdirdə, həmçinin Bankla müqavilə münasibətlərində olduğu dövrdə bu hal əmələ gələrsə bu barədə 5 (beş) iş günü ərzində Banka rəsmi məlumat verməli və müvafiq sənədləri Banka təqdim etməlidir. Bu hal müəyyən olunarsa Müştəri müvafiq dövlətin qanunvericiliyinə uyğun olaraq vergi rejimi subyekti və Müştərinin Bankdakı hesabları Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış beynəlxalq müqavilələrin tələblərinə uyğun olaraq həmin dövlətə hesabat verilməli hesabı kimi qəbul edilə bilər.
4.2. Müştəri digər dövlətin vergi rejiminin müvafiq subyekti hesab edilərsə və Müştərinin hesabı barəsində hesabat verilməli hesab kimi müəyyən edilərsə, Müştəri özünün hesabı və əməliyyatları barədə bütün məlumatların Azərbaycan Respublikası Vergilər Nazirliyi vasitəsi ilə müvafiq dövlətin səlahiyyətli orqanına ötürülməsi, həmçinin müvafiq dövlətin qanunvericiliyinə əsasən hesabından müvafiq vergilərin tutulmasına tam razılıq verir.
4.3. Yuxarıda qeyd olunan hal müəyyən olunarsa, Müştəri Bankın yalnız agent funksiyası daşıdığını dərk edir və öz hesabından müvafiq dövlətin səlahiyyətli orqanlarına müvafiq vergilərin ödənilməsi üçün tutulan məbləğlərə və ötürülən məlumatlara dair Banka qarşı heç bir etiraz irəli sürmür.

## 5. Tərəflərin məsuliyyəti

5.1. Müştəri bununla bəyan edir ki, Hesab(lar)dan kommersiya məqsədi ilə istifadə etməyəcək və belə hal baş verərsə yaranacaq vergi məsuliyyətindən xəbərdardır.
5.2. Bankın xidmətlərinin ödənilməsindən imtina etdikdə, yaxud Bankın xidmətlərini vaxtında ödəmədikdə Müştəri Banka hər ötən gün üçün cərimə ödəyir.
5.3. Müqavilənin II.5.1. və II.5.2. bəndlərində qeyd olunan cərimə faizlərinin miqdarı pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edildiyi gün üçün Mərkəzi Bankın təyin etdiyi uçot dərəcəsi ilə müəyyənləşdirilir.
5.4. Bank Müştəriyə xidmət edərkən (ödəniş tapşırıqlarının icrası və s. əməliyyatlar zamanı), öz müxbir banklarının və ya digər üçüncü tərəflərin həmin ödənişin icrasını gecikdirilməsi və ya

digər səbəblərdən məbləğlərin dondurulması üçün Müştəri qarşısında heç bir məsuliyyət daşımır.

5.5. Müştərinin təqdim etdiyi əlaqə vasitələri (mobil nömrə, e-mail, faks, ünvan) müvafiq ərizə formalarında düzgün qeyd edilməmişdirsə, və ya dəyişikliklər barədə Banka yazılı məlumat verilməmişdirsə, bu zaman Bank, Hesab üzrə göstərilən xidmətlərlə və ya ondakı dəyişikliklərlə bağlı məlumatın vaxtında Müştəriyə çatdırılmamasına görə heç bir məsuliyyət daşımır.

5.6. Müştəri, Bank hesabından cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı məqsədlər üçün istifadə etməmək öhdəliyini öz üzərinə götürür və qanunvericilikdə nəzərdə tutulan müvafiq məsuliyyət daşıyır.

5.7. Bank, tərəfindən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı halların qarşısının alınması məqsədilə Müştəridən heç bir izah verilmədən və hər hansı bir bank əməliyyatını icra etmədən əlavə sənədlər və məlumatlar tələb edə bilər.

5.8. Müştərinin özünə, rezidenti olduğu və ya hər hansı əlaqəsi olduğu ölkəyə Azərbaycan Respublikası, hər hansı digər dövlət və ya hər hansı Beynəlxalq Təşkilat tərəfindən sanksiya qoyulduqda Bank Müştərinin hesabındakı vəsaiti dondura, əməliyyatların aparılmasına məhdudiyyət qoya və digər hərəkətlər edə bilər.

## 6. İnternet bank xidməti

6.1. Müştərinin müraciətinə əsasən Bank, Müştərinin Bankda mövcud olan, habelə bundan sonra açılacaq (Müştəri bunun üçün Banka rəsmi təqdim etdiyi əlaqə vasitəsilə müraciət edərsə) hesab(lar)ı üzrə (bu bənd çərçivəsində "Hesab" adlandırılacaq) İnternet bank xidmətini (bu bənd çərçivəsində Xidmət adlandırılacaq) göstərir. İnternet bank xidməti çərçivəsində, Bank Müştəriyə İnternet bank sistemində mövcud olan bank əməliyyatlarından istifadə etmək imkanı yaradır.

6.2. Xidmət Müştəriyə qlobal İnternet şəbəkəsi vasitəsilə təqdim olunur.

6.3. Müştəri Bank tərəfindən ona təqdim olunmuş istifadəçi adı, PIN kod və məxfi şifrələr vasitəsi ilə (bundan sonra Kodlar) öz Hesabına çıxış əldə edir və Bank Müştəri tərəfindən bu Hesab üzrə təqdim olunan tapşırıqlar əsasında Xidmət çərçivəsində bütün əməliyyatları həyata keçirir.

6.4. Müştəri bəyan və təsdiq edir ki, onun Xidmət vasitəsi ilə Banka təqdim etdiyi Hesab üzrə əməliyyat tapşırıqları onun öz təşəbbüsü ilə və özü tərəfindən verilmiş hesab olunacaq, həmçinin də Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun şəkildə çap versiyasında hazırlanmış tapşırıqlara bərabər tutulacaq.

6.5. Müştərinin Xidmət vasitəsi ilə əldə etdiyi Hesabdan çıxarış onun yazılı sorğusuna əsasən çap versiyasında hazırlanmış Hesabdan çıxarışa bərabər tutulacaq. Xidmətin göstərilməsi zamanı tapşırıqların icrası üzrə yaranacaq istənilən mübahisələrdə bu çıxarışlar Müştəri tərəfindən verilən tapşırıqların Bank tərəfindən icra olunduğunu təsdiqləyən sənəd kimi çıxış edəcəklər.

*6.6. Müştəri aşağıdakıları öz öhdəsinə götürür:*

6.6.1. Bank tərəfindən ona təqdim olunmuş kodların məxfiliyini təmin etmək və onları üçüncü tərəfə açıqlamamaq.

6.6.2. Xidmətdən istifadə üçün Bankın https://Pashabank.digital və ya https://ib.pashabank.az internet səhifəsinə daxil olmaq.

6.6.3. Xidmətə ilkin qoşulma (giriş) zamanı PIN kodu dəyişmək.

6.6.4. Kodlar itirildiyi (və ya oğurlandığı) zaman dərhal bu barədə Bankı şifahi olaraq telefon vasitəsilə (Müştərinin identifikasiyası üçün zəruri olan məlumatları təqdim edərək), və ya Bankın Əlaqə Mərkəzinin əməkdaşlarına müraciət edərək məlumatlandırmaq və Xidmətdən istifadəni bloklaşdırmağı tələb etmək. Şifahi müraciətdən sonrakı 3 (üç) iş günü ərzində Müştəri bu müraciətini məktub və ya faks vasitəsi ilə yazılı olaraq təsdiqləyir. İstənilən halda, Müştəri

razılaşır ki, Bankın vaxtında yazılı olaraq məlumatlandırılmaması nəticəsində kodların dəyişdirilmədiyi üçün Banka qarşı heç bir iddia irəli sürməyəcək.

6.6.5. Xidmətdən istifadə bloklaşdırıldığı təqdirdə yeni kodların alınması üçün Banka müraciət etmək.

6.6.6. Bankın İnternet bank sisteminə qoşulma və ondan istifadə qaydalarına riayət etmək.

6.6.7. Xidmətdən istifadə zamanı kodlarda dəyişiklik etdiyi halda onların Bankın tələblərinə uyğun olmasını təmin etmək.

6.6.8. Xidmətdən istifadə zamanı Bankın təhlükəsiz istifadəyə dair tövsiyələrinə riayət etmək.

6.6.9. Təqdim olunan xidmətin maneəsiz göstərilməsi üçün zəruri olan internet sürəti və digər tələbləri yerinə yetirmək.

*6.7. Müştəri aşağıdakı hüquqlara malikdir:*

6.7.1. Bu Müqavilənin II.6.6.4. bəndində qeyd olunan qaydada Xidmətdən istifadənin bloklaşdırılması barədə Bankı təlimatlandırmaq.

6.7.2. Bu Müqavilədə qeyd olunan hallarda Xidmətdən istifadə bloklaşdırıldığı zaman, yeni Kodların verilməsi üçün Banka müraciət etmək.

*6.8. Bank aşağıdakıları öz öhdəsinə götürür:*

6.8.1. Xidmətdən istifadə zamanı texniki problemlər yaranarsa, onları ağlabatan müddətdə aradan qaldırmaq. Bu hal baş verərsə, texniki problemlər aradan qaldırılanadək, Müştəri tapşırıqları Banka adi qaydada, kağız daşıyıcı vasitəsi ilə təqdim edərək əməliyyatlar aparmaq.

6.8.2. Bu Müqavilədə göstərilən qaydada Müştəri tərəfindən müvafiq müraciət daxil olduğu təqdirdə, Hesabdan istifadəni dərhal bloklaşdırmaq.

6.8.3. Müştərinin müraciətinə əsasən Xidmətdən istifadə üçün ona yeni kodlar təqdim etmək.

*6.9. Bank aşağıdakı hüquqlara malikdir:*

6.9.1. Öz mülahizəsinə uyğun olaraq, Müştərini 1 (bir) gün qabaqcadan yazılı qaydada xəbərdar etmək şərti ilə birtərəfli qaydada Xidmətdən istifadə qaydalarını dəyişmək.

6.9.2. Müştəri tərəfindən əməliyyatın həyata keçirilməsi üçün natamam (və ya səhv) məlumatların təqdim edildiyi, və ya bu tapşırıq AR qanunvericiliyinə uyğun olmadığı hallarda, həmçinin - əməliyyatın həyata keçirilməsi və ya xidmət haqları üçün Müştərinin Hesabında yetərincə vəsait olmadığı təqdirdə, bu əməliyyatın həyata keçirilməsindən imtina etmək.

6.9.3. Müştərinin Hesabı bloklaşdırıldıqda, ona həbs qoyulduqda və ya AR qanunvericiliyi ilə tələb olunan digər hallarda Müştərinin Xidmət vasitəsi ilə əməliyyatlar etməsini məhdudlaşdırmaq.

6.9.4. Müştəri tərəfindən kodlar 1 (bir) gün ərzində ardıcıl olaraq 3 (üç) dəfə səhv daxil edilərsə, onun Xidmətə girişi məhdudlaşdırmaq.

6.9.5. Zərurət yaranarsa proqram təminatının quraşdırılması, dəyişdirilməsi üçün və ya sistemdə təmir aparılması üçün Xidmətin fəaliyyətini dayandırmaq.

6.9.6. Aşağıdakı hallarda Müştərinin Xidmətə girişini dərhal ləğv etmək:

6.9.6.1. Müştərinin yazılı müraciətinə əsasən;

6.9.6.2. Müştərinin Hesabı bağlandığı təqdirdə.

6.10. Bank aşağıda qeyd olunan hallara görə heç bir məsuliyyət daşımır:

6.10.1. Müştərinin səhvi, gecikdirməsi, və ya avadanlığının nasazlığı və ya əlaqə kanallarında kəsilmələr olduğundan Xidmətə çıxışı əldə edə bilməməsi üçün;

6.10.2. Müştərinin internet banka daxil olduğu kompüterin proqram və texniki təminatının təmin edilməsinə, bu kompüterin məlumat təhlükəsizliyinə, ziyanverici kod və haker hücumundan qorunmasına və nəticədə müştərinin İnternet bank hesabı ilə əlaqədar məlumatlarının tamlığının, məxfiliyinin, istifadəliliyinin pozulmasına və bununla bağlı digər ziyanlara görə;

6.10.3. Xidmətin göstərilməsi üçün üçüncü tərəflərin (İnternet provayder və digər) Bankı təmin etdiyi vasitə, xidmət və məhsullara görə;

6.10.4. Bankın nəzarətindən kənar üçüncü şəxslərin Xidmətə icazəsiz girişi üçün;

6.10.5. İtirilən (oğurlanmış) Kodlar, səhv əməliyyatlar və Müştərinin bank hesab(lar)ına (və ya Xidmətin özünə) Xidmət vasitəsilə icazəsiz girişlər barədə Bankın vaxtında məlumatlandırılmamasının nəticələrinə görə.

6.11. Bu Xidmətlə bağlı yaranan hər hansı maddi zərər və ya məsuliyyəti birbaşa olaraq Müştəri özü və öz hesabına daşıyır.

6.12. Xidmətin göstərilməsi zamanı aparılan əməliyyatlara müvafiq hesab üzrə nəzərdə tutulan şərtlər tətbiq edilir.

6.13. Bank Müştərinin xidmət üzrə imza funksiyası olmadan əməliyyat həyata keçirməyə səlahiyyət verilən istifadəçisini Müştərinin özü/onun adından çıxış edərək istifadəçi məlumatlarını təsdiq edən səlahiyyətli şəxs kimi qəbul edir və həmin istifadəçinin bütün hərəkətlərini Müştəri/onun səlahiyyətli şəxsi tərəfindən edilmiş kimi tanıyır. Əgər Müştəri bunun əksini iddia edərsə, Bank məsuliyyət daşımır.

## 7. Dövri ödəniş tapşırığı

7.1. Müştərinin müraciətinə əsasən, Bank ona "Dövri ödəniş tapşırığının icrası üzrə ərizə" formasında göstərilən şərtlərlə müvafiq Cari hesab üzrə Müştəriyə təkrar olunan nağdsız ödənişləri və/və ya valyutanın alqı-satqısı üzrə təkrar olunan əməliyyatlarının Dövri Ödəniş Tapşırıqları əsasında Bank tərəfindən avtomatik olaraq həyata keçirilməsi xidmətini göstərir.

7.2. Dövri Ödəniş Tapşırığı - Azərbaycan Respublikasının qanunvericiliyinə və Bankın daxili qaydalarına əsasən tərtib olunan, qeyd olunan günlərdə və intervallarla müəyyən olunan Benefisiara dövri ödənişin avtomatik olaraq köçürülməsinə və/və ya tələb olunduqda, valyutanın alqı-satqısına göstəriş verən Müştəri tərəfindən Banka təqdim olunan yazılı ödəniş tapşırığıdır.

7.3. Benefisiar - Dövri Ödəniş Tapşırığında qeyd olunan Dövri Ödənişin benefisiarıdır.

## 8. Dövri Ödəniş Tapşırığının icrasına dair şərtlər

8.1. Dövri Ödəniş Tapşırığı əsasında həyata keçirilən dövri ödəniş və/və ya valyutanın alqı-satqısı Müştərinin müvafiq Bank Hesabından aparılır.

8.2. Dövri Ödəniş Tapşırıqlarının icrası üçün Müştəri icra olunmalı əməliyyat üzrə Dövri Ödəniş Tapşırığında ödənişin təyinatı, ödəniləcək konkret məbləğlər, Benefisiarın adı, Benefisiarın bank məlumatları və/və ya valyutanın alqı-satqısı üzrə dəqiq məlumat və qanunvericiliklə tələb olunan digər zəruri məlumatlar göstərilməlidir.

8.3. Hər bir Dövri Ödəniş Tapşırığı onun şərtlərində göstərilən müddət ərzində etibarlıdır.

8.4. Dövri Ödəniş Tapşırığı əsasında ödəniş Dövri Ödəniş Tapşırığında göstərilən məlumatlara uyğun olaraq həyata keçirilməlidir. Dövri Ödəniş Tapşırığında göstərilən məbləğ Dövri Ödəniş Tapşırığının etibarlılıq müddəti ərzində dəyişdirilmədən Benefisiara köçürülməlidir.

8.5. Dövri ödənişin və/və ya valyutanın alqı-satqısının vaxtı-vaxtında icrasını təmin etmək üçün Müştərinin müvafiq Bank Hesabında kifayət məbləğin olması zəruridir. Dövri Ödəniş Tapşırığında göstərilən icra tarixində Müştərinin Bank Hesabında bu əməliyyatın icrası və müvafiq xidmət haqqının ödənilməsi üçün kifayət qədər vəsait olmadıqda, Dövri Ödəniş Tapşırığı Bank tərəfindən həmin tarix üçün icra olunmur. Dövri Ödəniş Tapşırığının hesabda kifayət qədər pul vəsaitinin olmaması və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həbs qoyulması səbəbəindən icra olunmaması, onun növbəti icra tarixlərində icrasını istisna etmir.

8.6. Dövri Ödəniş Tapşırığı əsasında ödənişlərin və/və ya valyutanın alqı-satqısının həyata keçirilməsi üzrə xidmət haqları Bankın qüvvədə olan xidmət tariflərinə uyğun olaraq müəyyən olunur.

8.7. Dövri Ödəniş Tapşırığının icrasının tarixi Azərbaycan Respublikası ərazisində tətbiq olunan qeyri-iş gününə təsadüf edirsə, Dövri Ödəniş Tapşırığı növbəti iş günündə icra olunur.

8.8. Dövri Ödəniş Tapşırığı əsasında valyutanın alqı-satqısı əməliyyatın aparıldığı gün üzrə Bankın həmin valyutanın alqı-satqısı üzrə müəyyən etdiyi məzənnəsinə uyğun olaraq həyata keçirilir.

## 9. Dövri Ödəniş Tapşırığı ilə bağlı tərəflərin hüquq və vəzifələri

*9.1. Bankın vəzifələri:*

9.1.1. Bankın qüvvədə olan tariflərinə uyğun olaraq xidmət haqlarının ödənilməsi şərti ilə Dövri Ödəniş Tapşırığını vaxtı-vaxtında və göstərilən məlumatlara uyğun olaraq dəqiq icra etmək.
9.1.2. Azərbaycan Respublikası Mərkəzi Bankının və Maliyyə Bazarlarına Nəzarət orqanının müvafiq qaydalarına və Bankın daxili qayda və prosedurlarına ciddi riayət etməklə hesablaşma əməliyyatlarını vaxtı-vaxtında yerinə yetirmək.
9.1.3. Müvafiq əməliyyatlar üzrə Müştəriyə Bank Hesabından çıxarış vermək.
*9.2. Bankın hüquqları:*
9.2.1. Bank aşağıdakı hallarda Dövri Ödəniş Tapşırığını icra etməmək hüququna malikdir:
9.2.1.1.1. Dövri Ödəniş Tapşırığı Azərbaycan Respublikasının qanunvericiliyinə və Bankın qaydalarına əsasən tərtib və təqdim olunmamasını sübut edən dəlillər olduqda;
9.2.1.1.2. Dövri Ödəniş Tapşırığında göstərilən icra tarixinə Müştərinin Bank Hesabında Dövri Ödəniş Tapşırığının icrası və Bankın müvafiq komissiyalarının ödənilməsi üçün kifayət məbləğ olmadıqda;
9.2.1.1.3. Müştərinin Bank Hesabına Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həbs qoyulduğu təqdirdə.
9.2.2. Özünün qüvvədə olan tarifləri əsasında Dövri Ödəniş Tapşırığının icra olunması üzrə xidmətlərə görə müvafiq xidmət haqqını Müştərinin Bank Hesabından akseptsiz qaydada silmək və ya onun ödənilməsini tələb etmək.
*9.3. Müştərinin vəzifələri:*
9.3.1. Dövri Ödəniş Tapşırığında qeyd olunan məlumatları düzgün və Azərbaycan Respublikasının qanunvericiliyinə və Bankın tələblərinə uyğun olaraq tam təqdim etmək.
9.3.2. Özünün müvafiq Bank Hesabında Dövri Ödəniş Tapşırığı üzrə ödənişin köçürülməsi və Bankın bununla əlaqəli müvafiq komissiyalarının ödənilməsi üçün kifayət edəcək məbləğin olmasını təmin etmək.
*9.4. Müştərinin hüquqları:*
9.4.1. Dövri Ödəniş Tapşırığın icra olunması üzrə Banka tapşırıq vermək və müvafiq məlumat almaq;
9.4.2. İcra olunmuş əməliyyatlar üzrə Bankdan çıxarışlar almaq.

**10. Dövri Ödəniş Tapşırığı üzrə xidmətə xitam verilməsi**

10.1. Müştəri istənilən vaxt "Dövri ödəniş tapşırığının icrası üzrə ərizə" formasını Banka təqdim etməklə bir və ya icrada olan bütün Dövri Ödəniş Tapşırığının(larının) icrasına xitam verə bilər. Bu halda Dövri Ödəniş Tapşırığı Müştərinin yazılı müraciəti Banka təqdim olunduğu gün ləğv olunur.
10.2. Bank həmçinin Müştəriyə 15 (on beş) təqvim günü əvvəlcədən təqdim olunan bildiriş ilə Dövri Ödəniş Tapşırığının icrası üzrə göstərdiyi xidmətlərə xitam verə bilər.

**11. Dövri Ödəniş Tapşırığı üzrə tərəflərin məsuliyyəti**

11.1. Müştəri Dövri Ödəniş Tapşırığında qeyd olunan məlumatların düzgünlüyü və dəqiqliyinə görə məsuliyyət daşıyır.
11.2. Bank Müştəri ilə üçüncü şəxslər arasında olan əlaqələrə görə, həmçinin Müştəri ilə üçüncü şəxslərin bir-birinə qarşı mümkün olan hər hansı iddialara görə heç bir məsuliyyət daşımır.
11.3. Müştəri razılaşır və təsdiqləyir ki, Bankın bu xidmət üzrə apardığı əməliyyatlar, Bankın həmin gün üçün müəyyən etdiyi məzənnəsinə uyğun həyata keçirilir və Müştəri Bankın həyata keçirdiyi bütün belə əməliyyalarla əlaqədar, o cümlədən belə əməliyyatlar nəticəsində və ya onlarla əlaqəli Müştərinin çəkə biləcəyi hər hansı zərər və ya ziyanla bağlı Banka qarşı heç bir tələb və ya iddia irəli sürməyəcək.
11.4. Bank, bu Müqavilənin II.10.2.5. bəndində göstərilən səbəblərə görə Dövri Ödəniş Tapşırığının icra olunmaması ilə əlaqədar Müştərinin hər hansı bir itkisinə görə heç bir məsuliyyət daşımır.

**12. Təminata (girova) dair müddəalar**

12.1. Müştəri Bank qarşısındakı öhdəliklərinin icrasını təmin etmək məqsədilə Banka təminat təqdim etmək öhdəliyi daşıyır.

12.2. Müştərinin Bank qarşısında öhdəliyi (kredit, qarantiya, akkreditiv və s.) yarandıqda Müştərinin Bankda olan hesablarındakı vəsait Müştərinin Bank qarşısındakı pul öhdəliyinin icrasının təmin edilməsi məqsədilə öhdəliyin həcmindən az olmamaqla Bankın xeyrinə hazırki Müqavilə əsasında girovla yüklü edilmiş hesab olunur. Girovla təmin olunmuş pul öhdəliyi qanunvericiliklə və ya "Maliyyələşdirmə üçün ərizə"/kredit müqaviləsi"/qarantiya/akkreditiv lizinq və digər öhdəlik yaradan müvafiq müqavilə, habelə ona edilmiş əlavə(lər) (bundan sonra "Öhdəlik yaradan müqavilə") üzrə müəyyən edilən şərtlərlə və müddətdə icra edilmədikdə və ya lazımınca icra edilmədikdə Bankın Müştəriyə qarşı olan pul tələbi Girovla yüklü edilən pul vəsaiti hesabına akseptsiz qaydada ödənilir.

12.3. Müştəri bəyan edir ki, girov predmeti onun mülkiyyətindədir, üçüncü şəxslərin hüquqları ilə yüklü, sonrakı girov, həbs və müsadirə altında deyil.

12.4. Girovla təmin edilən tələb Bank ilə müştəri arasında bağlanmış Öhdəlik yaradan müqavilədən əmələ gələn, Bankın müştəriyə qarşı olan əsas borc, faizlər, komissiya, öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi, o cümlədən gecikdirilməsi nəticəsində dəbbə pulu və (və ya) vurulmuş zərər, girov predmetinə tutmanın yönəldilməsi ilə əlaqədar məhkəmə xərclərinin və digər xərclərin ödənilməsi üzrə bütün pul tələbləridir.

12.5. Girovla təmin edilən öhdəlik üzrə tələblərin ölçüsü və icra müddəti Bankla Müştəri arasında bağlanan Öhdəlik yaradan müqavilə ilə müəyyən edilir.

12.6. Müştəri Öhdəlik yaradan müqaviləyə (və ya müqavilələrə) əsasən yaranan pul öhdəliyinin icrasını girov predmeti hesabına təmin etməyə, həmçinin girov predmeti olan pul vəsaiti olduqda, pul vəsaitinin öhdəlik həcmində akseptsiz qaydada silinməsinə razılıq verir.

12.7. Müştəri bu müqaviləni imzalamaqla qəbul və təsdiq edir ki, öhdəlik yaradan müqavilə üzrə müqavilə şərtlərinin pozulmasına görə öhdəlik yaradan müqavilənin faiz dərəcəsi Bank tərəfindən 5%-ə qədər, həmçinin bu Müqavilədə nəzərdə tutulan hallarda və qaydada birtərəfli qaydada artırıla bilər. Bu halda və ya hər hansı səbəbdən öhdəlik yaradan müqavilə üzrə faiz dərəcəsi artırılarsa, Müştəri bu Müqavilə üzrə təminat verdiyi öhdəlik həcminin müvafiq şəkildə artdığı halda həmin hissədə də öhdəliyini icra edəcəyinə zəmanət verir.

12.8. Müştərinin Bank qarşısında olan öhdəliklərinin icra edilməli olduğu valyuta ilə girov predmeti olan pul vəsaitinin valyutası fərqləndiyi halda, Bank tərəfindən Girov predmeti olan pul vəsaitinin akseptsiz qaydada silinməsi (əməliyyatı) Bankın silinmə gününə olan kommersiya məzənnəsi və qüvvədə olan tariflərinə uyğun şəkildə öhdəliklərinin icra edilməli olduğu valyutaya mübadilə edilərək həyata keçirilir (*Girov predmeti olan pul vəsaitinə münasibətdə).*

12.9. Girov üzrə tərəflərin hüquq və vəzifələri.

12.9.1. Müştərinin hüquqları:

12.9.1.1. Girov predmeti barədə cari məlumat almaq;

12.9.1.2. Girov qoyulmuş əşyanı vəsiyyət etmək/və ya hüquq varisliyi ilə ötürmək;

12.9.1.3. Öhdəlik yaradan müqavilə üzrə öz öhdəliklərini icra etdikdən sonra girov predmetinə istifadə, sahiblik və sərəncam hüquqlarını maneəsiz həyata keçirmək;

12.9.1.4. Qanunvericilikdən və bu müqavilədən irəli gələn digər hüquqlar.

12.9.2. Müştərinin vəzifələri:

12.9.2.1. Girov predmetini bu maddə ilə müəyyən olunan şərtlərlə və qaydada girov qoymaq;

12.9.2.2. Girovla təmin edilən tələb xitam edilənədək girov predmeti üzərində istifadə və sərəncam hüquqlarını müvəqqəti olaraq dayandırmaq;

12.9.2.3. Girov predmetini Bankın bu barədə yazılı razılığı olmadan dəyişdirməmək;

12.9.2.4. Girov predmetini sonradan girov qoymamaq;

12.9.2.5. Girovla təmin edilmiş öhdəlik yaradan müqavilədən irəli gələn öhdəlikləri icra etmədikdə və ya lazımınca icra etmədikdə yaranmış öhdəlik üzrə "Girov saxlayan"ın tələbinin girov qoyulmuş əşya hesabına akseptsiz qaydada ödənilməsini qəbul etmək;

12.9.2.6. Bu müqavilə ilə üzərinə götürdüyü vəzifələri vaxtında və lazımınca icra etmək və onların pozulmasına yol verməmək.
12.9.2.7. Girov predmetinin həcmi və /və ya dəyəri azaldıqda, azalan həddi dəyərində yeni təminat predmetini 1 həftə ərzində təqdim etmək.
12.9.3. Bankın hüquqları:
12.9.3.1. Öhdəlik yaradan müqavilədən irəli gələrək bank hesabında yerləşdirilən pul vəsaitini öhdəlik həcmində məbləğdə bloklaşdırmaq (dondurmaq).
12.9.3.2. Öhdəlik yaradan müqavilə üzrə öhdəliklər lazımi qaydada icra edilmədikdə və vəzifələr pozulduqda tələbi girov predmetinə yönəltmək və bunun əsasında tələb həddində məbləği girov qoyulan pul vəsaitinin olduğu hesabdan akseptsiz qaydada silmək.
12.9.4. Bankın vəzifələri:
12.9.4.1. Müştərinin sorğusuna əsasən, girov predmeti barədə məlumat vermək;
12.9.4.2. Öhdəlik yaran müqavilədə fərqli şərt nəzərdə tutulmadıqda, həmçinin girov predmeti olan pul vəsaiti bloklaşdırıldıqda, öhdəlik həcmindən artıq pul vəsaitini blokdan azad etmək.
12.10. Girov dair müddəalar öhdəlik yaradan müqavilə(lər) üzrə müəyyənləşdirilən öhdəlik(lər) tam icra edilən müddətədək qüvvədədir.
12.11. Girov predmeti yalnız Müştərinin Bank qarşısında olan, öhdəlik yaradan müqavilədən irəli gələn bütün öhdəliklərinin icra edilməsindən sonra Müştəriyə qaytarılır (Müştərinin sərəncamına verilir).
12.12. Girov predmetinə faizlər hesablanarsa, həmin faizlər də girovun predmetidir.
12.13. Müştəri girov predmetinin yüklülüyü haqqında qanunvericiliklə nəzərdə tutulmuş bütün növ bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə Bank tərəfindən daxil edilməsinə razılıq verir və bununla bağlı bəyan edir ki, Banka qarşı hər hansı şikayəti, etirazı və ya iddiası yoxdur.
12.14. Girov predmeti barədə bildirişlərin (məlumatların) daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi ilə bağlı yaranan xərclər (xidmət haqqı) Müştəri tərəfindən ödənilir.
12.15. Öhdəlik yaradan müqavilə ilə bu maddədə nəzərdə tutulandan əlavə müddəalar nəzərdə tutula bilər. Öhdəlik yaradan müqavilənin şərtləri ilə bu maddə arasında ziddiyyət yaranarsa, Öhdəlik yaradan müqavilənin müddəaları üstünlük təşkil edir.

## III. DEPOZİT (ƏMANƏT)

### 1. Depozit barədə məlumat

1.1. Bank, Müştərinin müraciəti əsasında ona və ya onun üçün daxil olmuş pul məbləğini (əmanəti) qəbul edərək bu müqavilədə nəzərdə tutulmuş şərtlərlə və qaydada Əmanət məbləğini Əmanət müddətinin sonunda Müştəriyə qaytarmağı və onun üçün faizlər ödəməyi (nəzərdə tutulduğu halda) öhdəsinə götürür.
1.2. Bu xidmət çərçivəsində “depozit” və “əmanət” sözləri eyni mənada başa düşülür.
1.3. Bank, Müştərinin müraciəti əsasında ona Əmanətin müxtəlif növləri üzrə xidmət təqdim edə bilər.
1.4. Əmanətin növü, məbləği, müddəti, faizlərin ödəniş tarixi və qaydası “Depozitlərin yerləşdirilməsi üçün ərizə” formalarında qeyd olunur.
1.5. Kredit, faizlər, xidmət haqları, Banka ödənilməli olan ödənişlər, üçüncü şəxslərin xeyrinə Banka verilmiş zaminliklər, girovlar və digər birtərəfli öhdəliklər üzrə yaranmış borcların ödənilməsi zamanı həmin öhdəlik məbləğləri Əmanət məbləğinin hesabına ödənilə bilər.

### 2. Depozitlə bağlı tərəflərin hüquq və vəzifələri

*2.1. Bankın hüquqları:*
2.1.1. Müştərinin əmanət hesabı açılması üçün təqdim etdiyi sənədlər qanunvericiliyin və Bankın daxili qaydalarının tələblərinə uyğun olmadıqda əmanət hesabı açmaqdan imtina etmək;
2.1.2. Bu Müqavilənin III.2.4. bəndi ilə üzərinə götürdüyü vəzifələrin vaxtında və lazımi qaydada icra edilməsini və onların pozulmasına yol verilməməsini Müştəridən tələb etmək;

2.1.3. Depozit üzrə ödənilən faizlərdən ödəniş mənbəyində Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq vergi tutulmasını həyata keçirmək;
2.1.4. Qanunvericiliklə müəyyən olunan qaydada səlahiyyətli orqanlar tərəfindən Müştərinin hesabına yönəldilmiş tələblərin ödənilməsinə yönəldilən pul vəsaitlərini Müştərinin Əmanət məbləğindən akseptsiz qaydada silmək.
2.1.5. Əmanət məbləği Bank qarşısında mövcud olan hər-hansı öhdəlik üçün təminat qismində çıxış etdikdə, gecikdirilmiş öhdəlik məbləğini Əmanət məbləğindən akseptsiz qaydada silmək;

2.2. *Bankın vəzifələri:*
2.2.1. Bu Müqavilə üzrə qəbul olunmuş əmanətin Əmanətlərin Sığortalanması Fondu (sonradan – Fond) tərəfindən sığortalanmasını təmin etmək;
Fond tərəfindən sığortalanmış əmanət üzrə aşağıdakı həcmdə kompensasiya ödənilir:
Sığorta hadisəsi baş verdikdə Əmanətçiyə "Əmanətlərin sığortalanması haqqında" və "Əmanətlərin tam sığortalanması haqqında" AR Qanunlarının tələblərinə uyğun olaraq kompensasiya ödəyir.
Milli valyutada olan əmanətlər üzrə kompensasiya manatla, xarici valyutada olan əmanətlər üzrə isə əmanətlərin valyutasında ödənilir. Əmanətlər ABŞ dolları və ya Avroda olmadıqda kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir.
2.2.2. Qanunvericiliklə və Bankın daxili qaydaları ilə müəyyən olunan sənədlər təqdim edildikdən və "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasında qeyd olunan əmanət məbləği Banka daxil olduqdan sonra şərtlərdən asılı olaraq, müvafiq faizləri hesablayaraq müəyyən olunmuş qaydada Müştərinin hesabına köçürmək;
2.2.3. "Depozitlərin yerləşdirilməsi üçün ərizə" forması ilə müəyyən olunan əmanət müddətinin başa çatmasından əvvəl Əmanət məbləği Müştəri tərəfindən tələb olunduqda, Əmanət məbləği və ona hesablanmış faizləri (nəzərdə tutulduğu halda) Banka ödənilməli olan bütün məbləğləri akseptsiz qaydada tutmaqla, Müqavilənin III.4. bəndinə uyğun olaraq Müştəriyə qaytarmaq;
2.2.4. Əmanətin məbləğinə bu müqavilə ilə müəyyən olunan şərtlərlə və qaydada faizlər hesablamaq və ödəmək;
2.2.5. Əmanətin müqavilə ilə müəyyən olunan şərtlərlə və qaydada Müştəriyə qaytarılmasını təmin etmək;
2.2.6. Əmanətçinin müraciəti əsasında ona müvafiq Əmanət növü üzrə nəzərdə tutulan əlavə imtiyazları təqdim etmək;
2.2.7. Əmanəti qəbul etdikdə Müştərinin tələbi ilə ona müvafiq təsdiqedici sənəd (bank/əmanət kitabçası, şəhadətnamə və ya sertifikat) təqdim etmək;
2.2.8. Müqavilə ilə üzərinə götürdüyü vəzifələrin vaxtında və lazımi qaydada icra etmək və onların pozulmasına yol verməmək.
2.3. *Müştərinin hüquqları:*
2.3.1. Mövcud qanunvericilikdə nəzərdə tutulduğu kimi, etibarnamə əsasında öz əmanəti üzrə hüquqlarını başqa şəxsə həvalə etmək;
2.3.2. Müvafiq Əmanət növü üzrə nəzərdə tutulan əlavə imtiyazlardan yararlanmaq;
2.3.3. Bu Müqavilənin III.2.2. bəndi ilə üzərinə götürdüyü vəzifələrin vaxtında və lazımi qaydada icra edilməsini və onların pozulmasına yol verilməməsini Bankdan tələb etmək.
2.4. *Müştərinin vəzifələri:*
2.4.1. Qanunvericiliyin və Bankın daxili qaydaları ilə müəyyən olunan sənədlərin təqdim olunmasını və "Depozitlərin yerləşdirilməsi üçün ərizə" forması ilə müəyyən olunan məbləğin Banka nağd və ya köçürmə yolu ilə verilməsini təmin etmək;
2.4.2. Adı, soyadı və atasının adı, qeydiyyat ünvanı və/və ya rekvizitlərində dəyişikliklər olduqda Bankı bu barədə 3 (üç) iş günü ərzində yazılı qaydada məlumatlandırmaq, müvafiq təsdiqedici sənədləri təqdim etmək və zərurət olduqda əmanət hesabını yenidən rəsmiləşdirmək;

2.4.3. Müqavilə ilə üzərinə götürdüyü vəzifələri vaxtında və lazımi qaydada icra etmək və onların pozulmasına yol verməmək.

**3. Əmanət üzrə faizlər**

3.1. Bu Müqaviləyə əsasən Bank qəbul etdiyi əmanət üçün Müştəriyə "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasında göstərilən illik faizi ödəyir. "Depozitlərin yerləşdirilməsi üçün ərizə"də başqa hal nəzərdə tutulmayıbsa, ödənilən faizlərə faiz hesablanmır.

3.2. Bu Müqavilə əsasında əmanət üzrə 1 (bir) il 360 (üç yüz altmış), 1 (bir) ay isə 30 (otuz) təqvim günü kimi hesablanır.

3.3. Əmanət məbləğinə faizlər bu məbləğin Banka daxil olduğu günün ertəsi günündən məbləğin Müştəriyə qaytarılmasından və ya başqa əsaslarla əmanətin Müştərinin hesabından silinməsindən əvvəlki günədək hesablanır və "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasında göstərilən tarixdə Müştərinin cari hesabına (və ya kart hesabına) köçürülür.

3.4. Əmanət və ona hesablanmış faizlər Müştəriyə Əmanətin müddətinin bitməsindən sonra növbəti iş günündə qaytarılır (müvafiq hesaba köçürülür) və Əmanət müddəti bitdikdən sonra Əmanət məbləğinə heç bir faiz hesablanmır.

3.5. Əmanət üzrə faizlər qanunvericilikdə müəyyən olunan qaydada vergiyə cəlb edildikdən sonra Müştəriyə ödənilir və bu ödəniş şərti pul məbləğinin depozitdə olduğu müddət ərzində dəyişdirilə bilməz.

3.6. Yığım əmanəti növündə - Əmanətin qüvvədə olduğu müddət ərzində "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasında qeyd olunan Əmanət məbləği Müştəri tərəfindən artırıla bilər. Artırılan məbləğə ilkin məbləğlə eyni faiz dərəcəsi tətbiq edilir.

3.7. Müddətli əmanət müddət bitdikdən sonra uzadıldıqda cari ana qüvvədə olan faiz tətbiq olunur. Bu faiz "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasında göstərilən faizdən fərqli olduqda, bununla əlaqədar müştəriyə məlumat verilir. Müştəri yeni faizlə razı olmasa, uzadılmış əmanətə xitam verə bilər.

3.8. Bank əmanət üzrə faizləri birtərəfli qaydada dəyişdirmək hüququna malikdir. Bank faizlərin miqdarını birtərəfli qaydada dəyişdikdə 1 (bir) həftə qabaqcadan Müştəriyə yazılı məlumat verir. Yeni faizlər Müştəriyə məlumat verildikdən, habelə əmanət müddətli xarakter daşıdıqda müddət bitdikdən sonra uzadıldıqda tətbiq olunur. Əmanətin uzadılması "Depozitlərin yerləşdirilməsi üçün ərizə"də ayrıca qeyd edilməyibsə, Bankın müraciəti və Müştərinin razılığı əsasında baş verir. Bu zaman Müştərinin yenidən "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasını imzalaması tələb olunmur.

**4. Əmanətə vaxtından əvvəl xitam verilməsi**

4.1. Əmanət xidmətinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilə bilər:

4.1.1. Müştərinin təşəbbüsü ilə - istənilən vaxt;

4.1.2. Bankın təşəbbüsü ilə - bu Müqavilə ilə müəyyən olunan hallarda;

4.1.3. Depozitin məbləği tam və ya qismən hər hansı öhdəliklər üzrə gecikdirilmiş məbləğlərin icra olunması məqsədilə akseptsiz silindikdə;

4.1.4. Depozitin məbləği tam və ya qismən qanunvericiliklə müəyyən olunan qaydada səlahiyyətli dövlət orqanları tərəfindən Müştərinin hesabına yönəldilmiş tələblərin icrasına yönəldikdə.

4.2. Əmanətə vaxtından əvvəl xitam verilməsi faizlərin hesablanmasının dayandırılması, habelə hesablanmış faizlərin ləğv olunması, ödənilmiş faizlərin isə əmanət məbləğindən çıxılması, xidmətdən istifadə ilə bağlı təqdim olunan əlavə imtiyazların aradan qalxması və müvafiq hesabın bağlanması üçün əsasdır.

**5. Əmanətin və hesablanmış faizlərin qaytarılması**

5.1. Bank, Müştərinin ilk tələbi ilə Əmanət məbləğinin ən azı dörddə bir hissəsini dərhal, qalan hissəsini isə "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasında göstərilən müddətdə, lakin qanunvericiliyin tələbinin gözlənilməsi şərtilə 5 (beş) təqvim günü müddətindən gec olmayaraq ona geri qaytarmalıdır.

5.2. Müştəri "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasında göstərilən müddət sona çatanadək əmanət məbləğini və ya onun bir hissəsini geri götürə bilər.

5.3. Müştəri, "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasında qeyd olunan müddət sona çatanadək əmanət qoyduğu pul məbləğini və ya onun bir hissəsini geri götürdükdə bu xidmətə xitam verilir və Müştəriyə yalnız "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasında qeyd olunan Əmanət məbləği geri qaytarılır, hesablanmış faizlər isə ödənilmir. Bu zaman, əgər Müştəriyə daha öncə həmin əmanət üzrə faizlər hesablanaraq ödənilmişdirsə, Depozitin əsas (ilkin) məbləği artıq ödənilmiş faiz məbləğləri tutulmaqla Müştəriyə geri ödənilir.

5.4. Əmanət qoyulan pul məbləği Müştərinin cari hesabına köçürülməsi yolu ilə ona geri qaytarılır.

5.5. Müştəri "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasında göstərilən müddət sona çatanadək Əmanət məbləğinin bir hissəsini geri götürdükdə, Müştəri "Depozitlərin yerləşdirilməsi üçün ərizə" ni yenidən təqdim etməklə qalan pul məbləğini Bankda yeni əmanət kimi yerləşdirə bilər.

5.6. Əmanətin qaytarılması Bankın bütün aktivləri ilə və qanunvericilikdə nəzərdə tutulmuş başqa üsullarla təmin edilir.

5.7. Depozit xidmətinə xitam verilməsi müvafiq depozit hesabının bağlanması üçün əsasdır.

5.8. Əmanət hesabı üzrə bütün əməliyyatlar müştərinin cari hesabı vasitəsilə aparılır. Əmanət qoyulan pul məbləği Müştərinin cari hesabına köçürülməsi yolu ilə ona geri qaytarılır.

5.9. "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasında göstərilən Əmanət müddətinin bitməsinə bir həftə qalmış Müştəri əmanətin qaytarılması üçün Banka müraciət etməzsə və ya Bank əmanət müddətinin uzadılmaması barədə Müştəriyə yazılı bildiriş göndərməzsə, Əmanət Müqavilənin III.3.7. bəndində qeyd olunan hal nəzərə alınmaqla, eyni müddətə yenidən yerləşdirilmiş sayılır. Bu zaman Müştərinin yenidən "Depozitlərin yerləşdirilməsi üçün ərizə" formasını imzalaması tələb olunmur.

5.10. Əmanət müddəti uzadılmadıqda, Bank Əmanət məbləğini Müştərinin cari hesabına köçürür və məbləğin geri qaytarılması barədə Müştəriyə yazılı bildiriş göndərir.

## 6. Əmanətlərin Sığortalanması Fondu, Bank və Müştəri

6.1. Bank 04 dekabr 2007-ci il tarixindən Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra – "Fond") iştirakçısı olaraq Fonda sığorta haqqı ödəyir (bu haqq Əmanətçidən tutulmur).

6.2. Bank tərəfindən Müştəridən bütün müvafiq valyutalarda qəbul edilmiş əmanətlər Fond tərəfindən sığortalanır.

6.3. Sığorta hadisəsi - Bankın məcburi ləğvi və ya müflis elan olunması, Bankın Müştəri qarşısında əmanət üzrə öhdəlikdərinin yerinə yetirilməsinə məhkəmə tərəfindən moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və Bankın Müştəri qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsi faktının Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq edilməsidir.

6.4. Sığorta hadisəsi baş verdikdə, Fond aşağıdakı kütləvi informasiya vasitələrində Müştəriyə kompensasiya ödənilməsi yeri və vaxtı haqqında elan verir:
a) AzTV; b) İctimai TV; c) Azərbaycan qəzeti; d) Respublika qəzeti; e) Xalq qəzeti; f) AzərTAC informasiya agentliyi və g) APA informasiya agentliyi.

6.5. Fonddan kompensasiya almaq üçün Müştəri kütləvi informasiya vasitələrində göstərilən yerə yazılı ərizə ilə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:
a) Şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiqləyən digər sənəd;
b) Əmanət kitabçası və ya əmanəti təsdiqləyən digər sənəd;
c) Bank əmanəti müqaviləsi.

6.6. Ərizənin verildiyi tarixdən etibarən 90 (doxsan) gün müddətində Fond tərəfindən Müştəriyə kompensasiya ödənilməlidir. Fond əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir. Müştərinin kompensasiya almaq hüququ Fondun kompensasiyaların ödənilməsi haqqında elanı ilk dəfə dərc etdiyi gündən 5 (beş) il müddətində saxlanılır.

6.7. Aşağıdakı əmanətlər qorunan əmanətlərə aid edilmir:

a) bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər;

b) cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;

c) cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;

d) üzərinə həbs qoyulmuş əmanətlər;

e) Cəlb edildiyi günə "Əmanətlərin sığortalanması haqqında" AR Qanununun 8.1.20-ci maddəsində göstərilən qaydada əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddindən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər;

f) fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 000 (iyirmi min) Azərbaycan manatı və ya ekvivalentindən yuxarı olan pul vəsaitləri;

g) fiziki şəxslərin bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri.

6.8. Fond sığorta hadisəsi baş verdikdə Müştəriyə "Əmanətlərin sığortalanması haqqında" və "Əmanətlərin tam sığortalanması haqqında" AR Qanunlarının tələblərinə uyğun olaraq kompensasiya ödəyir.

6.9. Fond kompensasiyanı milli valyutada olan əmanət üzrə manatla, ABŞ dollarında olan əmanət üzrə ABŞ dollarında, AVRO-da olan əmanət üzrə isə AVRO-da Müştəriyə ödəyir. Əmanət ABŞ dolları və ya AVRO-da olmadıqda kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir. Fond əmanət üzrə faizləri sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə Müştəriyə ödəyir.

6.10. Müştərinin Bankda bir neçə əmanəti yaxud həmin əmanətlər müxtəlif valyutalarda olduğu zaman, Fond həmin əmanətləri toplayır və bir əmanət kimi kompensasiya olunur. Müştərinin Fondun hər hansı digər iştirakçı bankında olan əmanətinə isə ayrıca əmanət kimi baxılır və kompensasiya ödənilir.

6.11. Bank Müştərinin yazılı və ya şifahi sorğularına cavab olaraq, Bankın sığorta sistemində iştirakı, qorunan əmanətlər və kompensasiyalar barədə Müştəriyə məlumat verir.

6.12. Müştəri aşağıda göstərilən ünvanda və ya əlaqə telefonları və elektron poçt vasitəsi ilə Fondla əlaqə saxlaya bilər: AZ1014, Bakı şəhəri, Bül-Bül prospekti 40 ; əlaqə tel: (99412) 596 65 91, 596 65 92, 596 65 93; Faks: (99412) 596 65 94; e-mail: adif@adif.az; sayt: www.adif.az.

6.13. Müqavilənin qüvvədə olduğu müddət ərzində "Əmanətlərin tam sığortalanması haqqında" AR Qanuna və ya müvafiq qanunvericilik aktlarına dəyişikliklər edildiyi təqdirdə, həmin aktların məcburi tələbləri bu Müqavilə üzrə Tərəflər arasında yaranmış münasibətlərə də şamil olunur.

## IV KREDİT (MALİYYƏLƏŞDİRMƏ)

### 1. Kredit barədə məlumat

1.1. Bank "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" forması ilə müəyyən olunmuş şərtlər əsasında hissələrlə və ya birdəfəlik verilən kredit (birdəfəlik kredit və ya kredit xətti və s. kimi öhdəliklər) üçün (bundan sonra xüsusi növə istinad edilmədiyi halda, ümumi olaraq "Kredit" adlandırılacaq) Müştəriyə "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" formasında

göstərilən şərtlərlə Kredit verir. Kredit üzrə faizlərin hesablanması və ödənilməsi qaydası (bu Müqavilədə qeyd olunandan fərqlidirsə), istifadə və qüvvədə olma müddət, cərimə, məqsəd, Müştəriyə verilməsi qaydası və bu kimi şərtlər "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" forması ilə müəyyən olunacaq və bu Müqaviləyə əlavə ediləcək.

1.2. Kreditdən yalnız müvafiq "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" formasında göstərilən məqsədlər üçün (təyinatı üzrə) istifadə edilməlidir.

1.3. Müştəriyə müvafiq limit ayrıldığı halda, verilən bütün kreditlərin ümumi məbləği "Maliyyələşdirmə üçün ərizə" formasında göstərilən məbləği aşmamalıdır.

1.4. "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" formasına əsasən Müştəriyə Kredit limiti ayrıldığı təqdirdə, o həmin Kredit limitindən 6 (altı) ay ərzində istifadə etmədiyi təqdirdə Kredit limitinin maksimal həddinə Bank tərəfindən yenidən baxıla bilər.

1.5. Kredit limitinin ayrılması Bankın Müştəriyə Kredit vermək vədini ifadə etmir. "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" formasında göstərilən məbləğ çərçivəsində Müştərinin hər bir Kredit sifarişinə ayrıca baxılır və qərar verilir. Müsbət qərar olduğu təqdirdə tərəflər arasında müvafiq Kreditin şərtləri göstərilən "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" imzalanır.

1.6. Müvafiq Kredit növü üzrə bu Müqavilədə qeyd olunmayan hər-hansı xüsusi şərtlər və hallar "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" formasında öz əksini tapır.

1.7. Kreditlə bağlı hər hansı bir tələb, bildiriş, xəbərdarlıq və s. sənədlər Müştərinin Banka təqdim etdiyi faktiki ünvanına və ya rəsmi qeydiyyat ünvanına yazılı şəkildə bildirişli məktub ilə göndərildikdə və ya ona şəxsən təqdim edildikdə Müştəriyə çatdırılmış hesab olunur.

## 2. Kreditlə bağlı tərəflərin hüquq və vəzifələri

2.1. *Bankın hüquqları:*

2.1.1. Müştərinin Kredit verilməsi üçün təqdim etdiyi sənədlər ona təqdim olunan sənədlər siyahısı, maliyyə bazarlarının tənzimləyicisinin normativ xarakterli aktları ilə müəyyən olunan tələblərə uyğun olmadıqda, həmçinin Müştərinin əmlak və/və ya maliyyə vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə və bu pisləşmə Kreditin qaytarılmasını real olaraq təhlükə qarşısında qoyduqda Kreditin hamısını və ya bir hissəsini verməkdən imtina etmək;

2.1.2. Müqavilənin IV.2.4. bəndi ilə üzərinə götürdüyü öhdəliklərin vaxtında və lazımınca icra edilməsini və onların pozulmasına yol verilməməsini Müştəridən tələb etmək;

2.1.3. Müştəri Müqavilə əsasında əmələ gəlmiş pul öhdəliklərini icra etmədiyi halda onun Bankda açılmış hesablarından bu pul öhdəliyini Müqavilənin IV.3.8. bəndinə uyğun ardıcıllıqla akseptsiz qaydada silmək;

2.1.4. Müştəri Müqavilə şərtlərinə uyğun olaraq, yaranmış pul öhdəliklərini icra etmədikdə və ya lazımınca icra etmədikdə, həmçinin, Müqavilənin şərtlərinə uyğun olaraq Kreditin müddəti bitdikdə və/ və ya pul öhdəlikləri Müştəri tərəfindən icra edilmədiyi halda əməliyyatların aparılmasının qarşısını almaq və Müştərinin hesablarına vəsait daxil olduqca onları Kredit üzrə yaranmış borclarının silinməsinə yönləndirmək;

2.1.5. Kredit hissələrlə verildiyi halda Müştərinin əmlak və/və ya maliyyə vəziyyətindən asılı olaraq limiti birtərəfli qaydada dəyişmək və ya ləğv etmək; *(birdəfəlik kreditlərə şamil olunmur)*

2.1.6. AR Mərkəzi Bankının pul-kredit siyasətinin tələblərindən irəli gələn səbəblər nəticəsində mərkəzləşdirilmiş kredit ehtiyatlarına görə faiz dərəcələri dəyişdirildikdə və ya Azərbaycan Respublikası daxilində inflyasiyanın həddi yüksəldikdə Müştərini yazılı qaydada qabaqcadan xəbərdar etmək şərti ilə Kredit üzrə faiz dərəcəsini kreditdən istifadə müddəti zamanı qarşılıqlı razılıq əsasında dəyişdirmək (istehlak kreditlərinə şamil edilmir);

2.1.7. Kredit üzrə bütün hüquqlarını üçüncü şəxslərə güzəşt etmək (satmaq və ya ötürmək);

2.1.8. Kredit Azərbaycan manatı ilə verildiyi halda, Azərbaycan manatının, Müqavilə imzalandığı günə olan AR Mərkəzi Bankının məzənnəsinə nisbətən, ABŞ dollarına qarşı məzənnəsinin hər

10% (on) faiz həcmində aşağı düşməsi halında birtərəfli qaydada Kredit üzrə faiz dərəcəsini 2% (iki) faizədək artırmaq (istehlak kreditlərinə şamil edilmir).

2.1.9. Təminatın Müştəri hesabına yenidən qiymətləndirilməsini, əgər dəyəri azalıbsa, azalan həddə dəyərindən az olmamaqla yeni təminat predmetini 1 (bir) təqvim ayı ərzində təqdim etməsini tələb etmək; *(təminatlı kreditlərə şamil olunur)*

2.1.10. Sığorta hadisəsi baş verdikdə sığorta ödənişindən təminat almaq;

2.1.11. Əgər kreditlə əlaqədar Sığorta xərcləri hər hansı səbəbdən Bank tərəfindən ödənilərsə, bu xərcləri Müştəridən reqress qaydada tələb etmək, habelə onun Bankda olan istənilən bank hesabından akseptsiz qaydada silmək;

2.1.12. Əmlakın sığorta müddəti kreditin bitmə müddətindən əvvəl bitərsə, sığorta müddətinin bitməsindən azı 30 gün əvvəl sığortanın yenilənməsini Müştəridən tələb etmək;

2.1.13. Qanunvericiliklə Banka verilən digər hüquqlar.

2.2. *Bankın vəzifələri:*

2.2.1. Müştərinin Kredit verilməsi üçün təqdim etdiyi sənədlər ona təqdim olunan sənədlər siyahısı və maliyyə bazarlarının tənzimləyicisinin normativ xarakterli aktları ilə müəyyən olunan tələblərə uyğun olduqda və müqavilənin IV 2.4.9 yarımbəndi ilə müəyyən olunan sənədlər təqdim olunduqdan sonra Müştəriyə Kredit vermək;

2.2.2. Müqavilə ilə üzərinə götürdüyü öhdəlikləri vaxtında və lazımi qaydada icra etmək və onların pozulmasına yol verməmək;

2.2.3. İstehlak kreditinin verilməsi zamanı istehlak kredit müqaviləsinin məsafədən bağlanılmasına və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsinə dair müştəri tərəfindən tətbiq edilən məhdudiyyətin olmamasını öz informasiya sistemi və kredit bürosunun informasiya sistemi vasitəsilə yoxlamaq;

2.2.4. Bu Müqavilənin IV.2.3.6 bəndi ilə nəzərdə tutulan məhdudiyyəti tətbiq etmiş Müştəridən istehlak krediti müqaviləsinin məsafədən bağlanması və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsi üçün müraciət aldıqda, bu barədə müştərini mobil tətbiq və ya SMS məlumatlandırma vasitəsi ilə dərhal məlumatlandırmaq;

2.2.5. Məsafədən istehlak krediti müqaviləsinin bağlanması və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsi zamanı müraciət edən şəxsi əvvəlcədən məlumatlandırılmaqla vəsaitləri vermək (vəsaitlərin verilməsi ilə bağlı müsbət qərar olduğu təqdirdə);

2.2.6. Qanunvericiliklə üzərinə düşən digər vəzifələr.

2.3. *Müştərinin hüquqları:*

2.3.1. Bankdan verilmiş Kredit üzrə özünün mövcud cari borcları barədə məlumat almaq.

2.3.2. Bu Müqavilənin IV.2.2. yarımbəndi ilə üzərinə götürdüyü öhdəliklərinin vaxtında və lazımınca icra edilməsini və onların pozulmasına yol verilməməsini Bankdan tələb etmək.

2.3.3. Kredit müqaviləsi bağlandıqdan 30 (otuz) gün ərzində heç bir səbəb göstərmədən və heç bir kompensasiya ödəmədən (yalnız faktiki hesablanmış nominal faizləri ödəməklə) istehlak krediti müqaviləsindən imtina etmək;

2.3.4. İstehlak krediti müddətində sorğu əsasında ödənişsiz olaraq kağız daşıyıcıda təqvim ili ərzində iki dəfə, digər davamlı daşıyıcıda isə istənilən zaman kreditin qalığı barədə hesabdan çıxarışı kreditin ödəniş qrafiki şəklində əldə etmək hüququ (ödəniş qrafikində həyata keçirilməli olan ödənişlər, belə ödənişlərin müddətləri, ödənişlərin strukturu, o cümlədən illik faiz dərəcəsi üzrə hesablanmış faizlər və tətbiq olunan digər əlavə xərclər göstərilir);

2.3.5. Müqavilənin IV.2.2. bəndi ilə üzərinə götürdüyü öhdəliklərinin vaxtında və lazımınca icra edilməsini və onların pozulmasına yol verilməməsini Bankdan tələb etmək;

2.3.6. İstehlak krediti müqaviləsinin məsafədən bağlanılmasına və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsinə kredit bürosunun informasiya sistemi vasitəsilə məhdudiyyət qoymaq və/və ya Bankın bütün satış kanalları vasitəsilə məhdudiyyət qoymaq üçün yazılı şəkildə müraciət etmək, həmçinin sözügedən

məhdudiyyətin Müştərinin bankda fiziki iştirakı, gücləndirilmiş elektron imzası və ya gücləndirilmiş müştəri autentifikasiyası yolu ilə təqdim etdiyi yazılı müraciəti əsasında aradan qaldırılmasını tələb etmək;

2.3.7. Müqavilənin IV.2.3.6-cı maddəsində nəzərdə tutulan məhdudiyyət olduğu təqdirdə istehlak kreditinin verildiyi və ya kredit limitinin məbləği artırıldığı halda verilmiş (artırılmış) kredit üzrə öhdəliklərin icrasından azad olunmaq.

2.4. *Müştərinin vəzifələri:*

2.4.1. Kredit verilməsi üçün Müqavilənin ona təqdim olunan sənədlər siyahısı və AR Mərkəzi Bankının və Maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları ilə müəyyən olunan sənədləri Banka təqdim etmək;

2.4.2. Kreditdən yalnız müqavilənin "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" formasında göstərilən məqsədlər üçün istifadə etmək;

2.4.3. Kredit və faizləri müqavilənin IV.3 bəndi və "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" forması ilə müəyyən olunan qaydada və şərtlərlə Banka ödəmək;

2.4.4. Bu Müqavilə üzrə yaranmış öhdəliklərinin icrasına təsir edə biləcək və ya onunla bağlı olan, özünün cəlb olunduğu məhkəmə mübahisələri və icraatı ilə bağlı bütün sənəd və/və ya məlumatları dərhal Banka təqdim etmək;

2.4.5. Kreditin və faizlərin qaytarılması məqsədilə özünün sağlam maliyyə vəziyyətinin təmin edilməsinə dair müvafiq tədbirlər görmək və öhdəliklərinin icrasını çətinləşdirəcək heç bir fəaliyyətə yol verməmək;

2.4.6. Müqavilənin IV.5.2 bəndi ilə müəyyənləşdirilən hallardan hər hansı biri mövcud olduqda, Bankın tələbnaməsində göstərilən müddətdə Krediti Banka qaytarmaq və faizləri ödəmək;

2.4.7. Kreditdən "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" formasında göstərilən məqsədlə istifadə edilməsinə nəzarətin həyata keçirilməsi üçün Bankın nümayəndəsinə lazımi şərait yaratmaq və müvafiq sənədləri ona təqdim etmək;

2.4.8. Maliyyə vəziyyətinə dair sənədləri tələb olunduqda Banka təqdim etmək;

2.4.9. Kredit təminatlı olduğu halda bu müqavilədən irəli gələn pul öhdəliyinin icrasının təmin edilməsi üçün bağlanmış girov (ipoteka) müqaviləsinin qeydə alınmasını təsdiq edən və tələb olunan müvafiq sənədləri Banka təqdim etmək və bununla bağlı, habelə yüklülük predmetlərinin sığorta olunmasından irəli gələn xərcləri ödəmək; *(təminatlı kreditlərə şamil olunur)*

2.4.10. Kredit verildiyi zaman, özünü bədbəxt hadisə nəticəsində əmək qabiliyyətinin daimi və ya müvəqqəti olaraq tam itirilmə risklərindən həyat sığortası üzrə öz hesabına Bankın xeyrinə Kredit müddətinin sonuna kimi sığorta etdirmək və həyatının sığorta olunmasını təsdiq edən sığorta şəhadətnaməsini Banka təqdim etmək;

2.4.11. Hesabına hər hansı bir səbəbdən aylıq əmək haqqı daxil olmadığı halda (mövcud aylıq borcun Bank tərəfindən avtomatik silinməsi mümkün olmadığı halda) və ya Kredit üzrə cari öhdəliyin ödənilməsi üçün müvafiq hesabda kifayət qədər vəsait olmadığı halda, Banka aylıq ödənişini nağd və ya köçürmə yolu ilə ödəmək; *(birdəfəlik kreditlərə şamil olunur)*

2.4.12. Cari iş yerini dəyişdikdə, başqa vəzifəyə keçirildikdə, və ya işdən azad olunduqda Bankı bu barədə 5 (beş) iş günü qabaqcadan yazılı qaydada məlumatlandırmaq. Yazılı məlumata məktub və ya elektron əlaqə vasitəsi (e-mail) aiddir.

2.4.13. Əgər kreditlə əlaqədar Sığorta xərcləri hər hansı səbəbdən Bank tərəfindən ödənilərsə, bu xərcləri Banka geri qaytarmaq;

2.4.14. Təqdim etmiş olduğu sənədlərdə baş vermiş dəyişikliklər barədə bütün məlumatları 3 (üç) iş günü ərzində müvafiq təsdiqedici sənədlər qoşulmaqla Banka təqdim etmək;

2.4.15. Təminat yüklü edildikdə sonra Bank tələb etdikdə onun Bankın razılıq verdiyi qiymətləndirmə şirkəti tərəfindən yenidən qiymətləndirilməsini təmin etmək, əgər dəyəri azalıbsa, azalan hədd dəyərindən az olmamaqla yeni təminat predmetinin 2 təqvim ayı ərzində Bankın xeyrinə yüklü olunmağını təmin etmək (təminatlı kreditlərə şamil olunur);

2.4.16. Müqavilə ilə üzərinə götürdüyü öhdəlikləri vaxtında və lazımi qaydada yerinə yetirmək və onların pozulmasına yol verməmək.

**3. Kreditin məbləği, verilməsi və qaytarılması, Kredit məbləğinə hesablanan faizlərin miqdari və ödənilməsi şərtləri**

3.1. Kredit, Bank tərəfindən kredit məbləğinin Müştəriyə Bankda onun üçün açılan ssuda hesabından müvafiq hesabına köçürülməsi yolu ilə verilir.

3.2. Müştəri Kreditdən istifadəyə görə Banka "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" formasında göstərilən faizləri ödəyir.

3.3. Nəzərdə tutulduğu halda, Müştəri Kreditin verilməsi üzrə "Fərdi müştərilərin Maliyyələşdirməsi üçün ərizə" forması ilə müəyyən olunan Komissiya haqqını, həmçinin də kreditin təminat predmeti üzrə (daşınar və daşınmaz) yüklülüyün dövlət qeydiyyatına alınması və məlumatların rəsmi reyestrə daxil edilməsi ilə bağlı yaranan xərcləri, Sığorta və Qiymətləndirmə xərclərini də ödəyir. Bu halda, Kredit üzrə Faktiki illik faiz dərəcəsi "Fərdi müştərilərin Maliyyələşdirməsi üçün ərizə" formasında göstərilən həddən artıq olmayacaq.

3.4. Faizlər Kreditin verildiyi günün ertəsi günündən Kredit qaytarılan günədək hesablanır.

3.5. Kreditin əsas məbləği və ona hesablanmış faizlər Müştəri tərəfindən Banka nağd və ya köçürmə yolu ilə ödənilir. Faizlərin son ödənişi Kreditin son ödənişi ilə birlikdə həyata keçirilir.

3.6. Kreditin əsas məbləğinin və ona hesablanmış faizlərin ödəmə qrafiki müqavilənin ayrılmaz hissəsi olan qoşmada göstərilir və əgər belə qoşma mövcud deyilsə, bu məbləğlər "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" forması ilə müəyyən olunan tarixdə ödənilir.

3.7. Kredit məbləği Banka "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" formasında göstərilən müddət ərzində tam olaraq qaytarılır. Kreditin müddətinin bitməsi Müştərinin öhdəliyinin aradan qalxmasına səbəb olmur. Müştəri kredit üzrə öhdəliyini tam şəkildə icra edənədək müvafiq öhdəliyin əsaslandığı "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" qüvvədə hesab olunur.

3.8. Müştərinin Bank qarşısında mövcud pul öhdəlikləri ilə bağlı Banka edilən hər hansı bir ödəniş ilkin olaraq cərimə (peniya) faizlərinin, sonra kredit faizlərinin və son olaraq əsas borc öhdəliyinin silinməsinə yönəldilir. Müəyyən edilmiş ardıcıllıq Bank tərəfindən birtərəfli qaydada dəyişdirilə bilər.

3.9. Bank, Müştərinin Kredit və ona hesablanmış faizlər üzrə yaranmış öhdəliklərini özünün ödəmə tələbnaməsi əsasında Kredit alanın müvafiq hesablarından akseptsiz qaydada silə bilər.

3.10. Kredit üzrə müəyyən olunan əsas məbləğ və faizlərin ödəniş günü qeyri-iş gününə təsadüf edərsə, ödəniş növbəti iş günü həyata keçiriləcək. Bu halda, Kredit üzrə müəyyən olunan faizlər növbəti iş gününədək hesablanacaq.

3.11. Kreditin əsas məbləği və ona hesablanmış faizlər ödəniş qrafikində və "Fərdi müştərilərin Maliyyələşdirməsi üçün ərizə" formasında göstərilən qaydada ödənilmədikdə gecikdirilmiş əsas məbləğə "Fərdi müştərilərin Maliyyələşdirməsi üçün ərizə" forması ilə müəyyən olunan qaydada və həcmdə cərimə faizi hesablanır. Cərimə faizi 2 qaydada müəyyən olunur: 1) kreditin müddəti bitənədək və 2) kreditin müddəti bitdikdən sonra. Kreditin müddəti bitənədək cərimə tətbiq olunduğu zaman kredit faizləri də öz növbəsində hesablanmağa davam edir.

3.12. Müştəri tərəfindən Banka ediləcək bütün ödənişlər heç bir qarşılıqlı hesablama aparılmadan, qarşılıqlı tələb təqdim edilmədən, mənbədə tutma tətbiq edilmədən həyata keçiriləcək, bu bir şərtlə ki, Müştəri qanun ilə belə bir mənbədən tutmanı aparmağa dair öhdəlik daşımasın. Belə olan təqdirdə isə Müştəri tərəfindən ödənilən məbləğ elə bir şəkildə aparılmalıdır ki, ona görə Bankın faktiki alacağı məbləğ hər hansı mənbədə tutmanın mövcud olmadığı halda alacağı məbləğə bərabər olsun. Hər hansı bir anlaşılmazlığın aradan qaldırılması üçün müqavilədə göstərilmiş bütün faiz, komissiya haqları, yaxud digər ödəniş məbləğlərinə heç bir mənbədə tutulan vergi, rüsum və yaxud haqq daxil deyildir.

3.13. Müştəri tərəfindən ödəniş tarixində ödəniş olmadığı təqdirdə, Müştəri müvafiq ərizə formasında müəyyənləşdirilən faiz həcmində (qanunvericiliklə qadağan olunmayan qaydada) gündəlik hesablanan cərimə ödəyir.

3.14. Birdəfəlik kredit üzrə, Müştəri tərəfindən Banka Kreditin əsas məbləği və ona hesablanmış faizlər üzrə aylıq ödəniş hər əmək haqqının köçürüldüyü gün əməkhaqqı hesabından avtomatik olaraq silinməsi yolu ilə həyata keçirilir, bir şərtlə ki əmək haqqı Müştərinin ödəniş öhdəliyindən ən tezi 5 (beş) iş günü əvvəl köçürülmüş olsun. Bütün digər hallarda (vəsaitin öhdəlik məbləğindən az olması halı daxil) aylıq ödənişin Ödəniş cədvəlinə müvafiq həyata keçirilməsi üçün Müştəri şəxsən özü cavabdehlik daşıyır. Faizlərin son ödənişi kreditin son ödənişi ilə birlikdə həyata keçirilir.

3.15. Kredit xətti güzəşt müddəti ilə verildikdə Müştəri Əsas borc məbləğini Güzəşt müddəti bitənədək tam şəkildə Banka qaytararsa, həmin məbləğə heç bir faiz hesablanmır. Əks halda əməliyyat aparıldığı tarixdən faiz tətbiq olunur. Bu halda Müştərinin yenidən kredit xəttindən güzəştli şərtlə istifadə etməsi üçün kredit xətti üzrə bir iş günü ərzində Müştərinin heç bir öhdəliyi olmamalıdır.

3.16. Müştəri ödənişi iş günləri 17:00-dan (qısaldılmış iş günlərində 16:00-dan) sonra, habelə qeyri-iş günü icra etdikdə ödəniş növbəti iş günü icra edilmiş hesab olunur.

## 4. Kreditin təminatı

4.1. Kredit təminatla və ya təminatsız verilə bilər. Kredit təminatla verilərkən "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" formasında göstərilən və ya sonradan müəyyən edilən təminat predmeti ilə təmin olunur.

4.2. Təminatı müəyyənləşdirən sənəd bu Müqaviləyə əlavə kimi qəbul edilir və onun ayrılmaz hissəsi hesab edilir.

4.3. Müştəri təminat predmetinin yüklülüyünün dövlət qeydiyyatına alınması ilə əlaqədar bütün lazımi sənədlərin Banka təqdim olunmasını və digər zəruri hərəkətlərin həyata keçirilməsini təmin etməyi bu Müqavilə ilə öz öhdəsinə götürür.

4.4. Qiymətləndirmə keçirildiyi təqdirdə, Müştəri "Əmlakın qiymətləndirilməsi xidməti" formasını doldduraraq Banka təqdim edir.

4.5. Təminat predmetinin yüklülüyünün dövlət qeydiyyatına alınması və məlumatların rəsmi reyestrə daxil edilməsi ilə bağlı, Sığorta və Qiymətləndirmə üzrə yaranan xərclər Müştəri tərəfindən ödənilir.

4.6. Müştərinin və ya digər üçüncü şəxsin Bankda olan hesablarında Azərbaycan manatında və ya digər valyutada olan vəsait (vəsaitlər) Müştərinin və ya digər üçüncü şəxsin Bank qarşısında öhdəliklərinin təminatı qismində Bankın xeyrinə yüklü edilə bilər. Bu halda yüklü edilən vəsait Bank tərəfindən bloklaşdırıla bilər. Yüklü edilən vəsait üzrə tələbə Müştərinin və ya üçüncü şəxsin Bank qarşısında olan əsas borc, faizlər, öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi, o cümlədən gecikdirilməsi nəticəsində dəbbə pulu və (və ya) vurulmuş zərərin və digər xərclərin ödənilməsi üzrə bütün pul tələbləri daxildir. Maliyyələşdirmə üçün ərizə üzrə öhdəliklər Müştəri və ya üçüncü şəxs tərəfindən icra edilmədikdə və ya lazımınca icra edilmədikdə, yüklü edilən vəsait akspetsiz qaydada Bank tərəfindən silinə bilər.

## 5. Kreditin müddəti, vaxtından əvvəl geri qaytarılması

5.1. Bu Müqavilə əsasında verilmiş Kredit üzrə 1 (bir) il 360 (üç yüz altmış), 1 (bir) ay isə 30 (otuz) təqvim günü kimi hesablanır.

5.2. Bu Müqavilə çərçivəsində Bank aşağıdakı hallarda Müştəriyə verilən Krediti vaxtından əvvəl ləğv edə və/və ya Kredit məbləğini vaxtından əvvəl Müştəridən tələb edə bilər:

5.2.1. Kreditin və faizlərin ödənilməsi Müştəri tərəfindən 3 (üç) aydan artıq müddətə gecikdirildikdə;

5.2.2. Kreditdən "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə" forması ilə müəyyən olunan məqsədlər üçün istifadə edilmədikdə;
5.2.3. Kreditin ümidsiz kreditə çevrilməsi riski ilə bağlı Bankın əsaslı ehtimalları yarandıqda;
5.2.4. Müqavilənin IV.2.4. bəndində göstərilən, habelə Maliyyələşdirmə üçün Ərizə əsasında Müştəri üçün müəyyən olunan öhdəliklər şərtlər Müştəri tərəfindən pozulduqda;
5.2.5. Qanunvericiliklə və bu Müqavilə ilə nəzərdə tutulan digər hallarda.
5.3. Müştəri kredit üzrə öhdəliklərini vaxtından əvvəl icra edilə bilər. Bu zaman Müştəri Banka hər hansı ərizə təqdim etmədiyi halda, Müqavilənin IV.3.8 bəndinin tələbləri nəzərə alınmaqla qalan məbləğ əsas borcun qabaqcadan ödənməsinə yönəlir və ümumi öhdəlik məbləği tam icra olunmadığı halda kreditin ödəniş müddəti dəyişdirilmədən aylıq ödəniş məbləği qabaqcadan ödənilmiş əsas borcun öhdəliyin icra vaxtına qalan aylara bölünməsi əsasında azaldılır. Müştərinin ümumi öhdəlik məbləği azaldığı halda Bank birtərəfli qaydada hazırlanmış yeni ödəniş qrafiki barədə Müştəriyə yazılı məlumat verir.
5.4. Müştəri Şərtlər Toplusunu qəbul etməklə, özünün kredit tarixçəsinin formalaşdırılması məqsədilə özünün adı, vergi ödəyisinin eyniləşdirilməsi nömrəsi, kredit borcunun məbləği, kreditin növü, son ödəniş tarixi, gecikdirilmədə olan günləri sayı və qanunvericiliklə ötürülməsi tələb olunan digər məlumatların Azərbaycan Kredit Bürosu MMC-yə ötürülməsinə və barəsində Azərbaycan Kredit Bürosu MMC-də toplanmış bütün məlumatların məhdudiyyətsiz sayda sorğulanması barədə Banka müddətsiz qaydada razılıq verir.

## 4. ÖDƏNİŞ KARTI

### 1. Ödəniş kartı barədə məlumat

1.1. Bank, Müştərinin müraciəti əsasında ona müxtəlif ödəniş kartları təqdim edə bilər.
1.2. Bank, Müştəriyə nağdsız qaydada ödənişlər etmək, hesablardakı pul vəsaitinin ATM və POS terminalları vasitəsilə hesabdan çıxarmaq və ödənişlər etmək üçün "Ödəniş kartları üzrə xidmətlərin göstərilməsi üçün ərizə" formasında göstərilən növdə və valyutada debit və ya kredit kartı olmaqla kartını Müştəriyə verməyi, Müştəri isə bu xidmət üzrə nəzərdə tutulan haqları Banka ödəməyi öhdəsinə götürür.
1.3. Müştərinin istəyi ilə "Ödəniş kartları üzrə xidmətlərin göstərilməsi üçün ərizə " formasında göstərilən şərtlərə uyğun bu kart növünə kredit xətti və/və ya overdraft da açıla bilər. Kredit kartı əlavə olaraq Müştəriyə özünün mədaxil etdiyi vəsaitdən əlavə Bank tərəfindən təyin olunmuş kredit xətti çərçivəsində vəsaiti xərcləmək imkanı verir. Kredit xəttinin bütün əsas şərtləri "Ödəniş kartları üzrə xidmətlərin göstərilməsi üçün ərizə" və ya "Fərdi müştərilərin Maliyyələşdirilməsi üçün ərizə"sində qeyd olunur.
1.4. Bu xidmət çərçivəsində hər hansıkart üzrə xüsusi istisna olmadığı halda ümumilikdə Kart adlandırılacaq.
1.5. Bank tərəfindən Kartların istifadəsi barədə məlumat Müştəriyə ayrılıqda təqdim olunur (kartın arxa üzündə çap edilərək və s.).

### 2. Karta dair ümumi şərtlər

2.1. Bank tərəfindən buraxılmış Kart Bankın xüsusi mülkiyyətidir.
2.2. Müştəriyə və ya Kart sahibinə Kart və PİN-kod olan qapalı zərf (PİN-kod kağız daşıyıcıda təqdim olunmadığı hallara bu bölmədəki "PİN-kod olan zərf" ilə bağlı müddəalar şamil edilmir) Bankın Biznes Mərkəzlərinin kassaları və ya kuryer vasitəsi ilə və kartı təhvil alan şəxsin səlahiyyətini təsdiq edən sənəd və şəxsiyyəti təsdiq edən sənəd əsasında təqdim olunur.
2.3. Müştəriyə 3 (üç) ay ərzində Kart və PİN-kod olan qapalı zərfi təqdim etmək mümkün olmadıqda həmin Kart Bank tərəfindən birtərəfli qaydada və hər hansı bildiriş göndərilmədən ləğv edilir.
2.4. Kart üzrə əməliyyatlar, həmçinin digər xidmətlər üçün komissiyalar və haqlar Bankın qüvvədə olan müvafiq tariflərinə əsasən tutulur.

2.5. Bankın özünün və digər bankların quraşdırdığı ATM-lərdən nağd pul vəsaitinin çıxarılmasına görə Kart sahibindən Bankın qüvvədə olan daxili tarifləri ilə müəyyən olunduğu halda xidmət haqqı tutulur. -

2.6. Müştəriyə telefon vasitəsilə Kartla bağlı xidmət göstərilməsi üçün Müştəri tərəfindən Banka müvafiq şifrə (bundan sonra "Şifrə" adlanacaq) təqdim olunur və ya Müştərinin identifikasiya prosesini uğurla keçməsi tələb olunur.

2.7. Kart itirildikdə Müştərinin yazılı və ya Mobil Bankçılıq xidməti vasitəsilə müraciəti əsasında Kart bloklaşdırılır və Müştərinin müvafiq qaydada müraciəti ilə ona Bankın qüvvədə olan daxili tarifləri ilə müəyyən olunan xidmət haqqını ödəməklə yeni Kart verilir.

2.8. Kartın PİN kodu Müştəri tərəfindən 3 (üç) dəfə düzgün yığılmadıqda Kart bloklaşdırılır. Müştəri Bankla telefon vasitəsi ilə əlaqə saxlayaraq identifikasiya prosesini uğurla keçməklə, Mobil Bankçılıq xidməti üzrə müraciət edir və ya öz şəxsiyyətini təsdiq edən sənədlə Banka müraciət etməklə Kartın PİN kodunu bərpa edə bilər.

2.9. Kart sahibi Kartın PIN kodunu tamamilə unutduğu halda, Müştəri PİN kodun dəyişdirilməsi barədə ərizə təqdim edir və Bankın qüvvədə olan daxili tarifləri ilə müəyyən olunan xidmət haqqını ödədikdən sonra POS terminal vasitəsilə PIN kod yenilənir.

2.10. Kart üzrə əməliyyat hər-hansı səbəbdən dayandırıldıqda (Kartın müddəti uzadılmadıqda və s.) hesabdakı qalıq Müştəriyə verilir və ya ən geci yeddi təqvim günü ərzində başqa hesaba köçürülür. Müştəri Banka heç bir göstəriş vermədiyi, və ya iradəsini hər-hansı formada bildirmədiyi halda, hesabın qalığı Bankda mövcud olan "Bağlanmış müştəri hesabları" adlı hesaba köçürülür və Müştəriyə bu barədə yazılı məlumat verilərək hesab bağlanır.

2.11. Kart üzrə texniki overdraft, yəni məzənnə fərqi, üçüncü tərəflərə gələcəkdə ödəniş edilməsi üçün Müştəri tərəfindən kart məlumatları daxil edildikdə, lakin ödəniş vaxtı hesabda vəsait olmadıqda və ya digər səbəblərdən mənfi balansa keçməsi halı baş verərsə, bu zaman, bu növdən olan kart üzrə Bankın mövcud cərimə faizləri tətbiq olunacaq. Cərimə faizləri möhlət müddəti tətbiq olunmadan, texniki overdraft halının baş verdiyi gündən hesablanmağa başlayır. Texniki overdraft nəticəsində yaranmış borcun (əsas, faiz, cərimə və s.) ödənilməsinə görə məsuliyyəti Müştəri daşıyır.

2.12. Kartın Müştərinin faktiki sahibliyində olub-olmamasından asılı olmayaraq, Kart ilə aparılan bütün əməliyyatların nəticələrinə görə Müştəri məsuliyyət daşıyır.

2.13. Bank Müştəri tərəfindən İnternetdən və Təmassız ödəniş funksiyasından istifadə etməklə kart vasitəsilə ilə aparılan ödənişlərə görə Müştəri qarşısında heç bir məsuliyyət daşımır.

2.14. Kart üzrə hər hansı faiz və ya nəzərdə tutulan komissiyalar Kartın hesab valyutasında hesablanaraq tutulur. Kart çoxvalyutalı olduğu təqdirdə, müvafiq komissiya məbləği Kartın əsas hesabının valyutasında, Kartın valyutası əməliyyatın valyutasından fərqləndikdə müavfiq komissiya məbləği Kartın valyutasında tutulur. Bu hallarda əməliyyatın icrası (hesabdan silinmə aparıldığı)tarixinə Bankın (ölkə xarici əməliyyatlar zamanı beynəlxalq kart təşkilatının) müəyyən etdiyi məzənnə ilə tutulur.

2.15. Kart üzrə əməliyyatlar Azərbaycan manatından başqa digər valyutada həyata keçirildikdə, balansda (o cümlədən SMS bildirişi vasitəsi ilə bildirilən) cari ana konvertasiya məzənnəsi nəzərdə tutulmur. Konvertasiya məzənnəsinin də əks olunduğu balans 30 (otuz) iş günü ərzində Müştərinin hesabında öz əksini tapır.

2.16. Kartlarla Azərbaycan Respublikasından xaricdə aparılan əməliyyatlar zamanı valyuta mübadiləsi müvafiq ödəniş sisteminin (kart təşkilatının) məzənnəsi ilə və əlavə komissiya tutulmaqla aparılır.

2.17. Əməliyyatların təhlükəsizliyi üçün 3D-Secure xidmətinin bağlı olduğu mobil nömrəyə gələn kodların məxfiliyi üçün, həmçinin 3D-Secure xidmətinin tətbiq olunmadığı internet-mağazalarda ödəniş edildikdə, habelə xidmətin ləğv olunması üçün müraicət edidikdə əməliyyatların təhlükəsizliyi üçün Müştəri/Kart sahibi məsuliyyət daşıyır.

## 3. Kart xidmətlərinin göstərilməsi ilə bağlı tərəflərin hüquq və vəzifələri

*3.1. Bankın hüquqları:*

3.1.1. Kartın dəyərini Bankın mövcud tariflərində nəzərdə tutulduğu halda Müştərinin bank hesabındakı pul vəsaitindən silmək;

3.1.2. Müştəriyə 3 (üç) ay ərzində Kart və PİN-kod olan qapalı zərfi təqdim etmək mümkün olmadıqda həmin Kartı birtərəfli qaydada ləğv etmək;

3.1.3. Bu Müqavilənin V.3.4. bəndi ilə üzərinə götürdüyü vəzifələrin vaxtında və lazımi qaydada icra edilməsini və onların pozulmasına yol verilməməsini Müştəridən tələb etmək;

3.1.4. Müştəri ilə münasibətlərin tənzimlənməsində müvafiq olaraq MasterCard və ya Visanın beynəlxalq normativlərinə əsaslanmaq;

3.1.5. Müəyyən etmiş olduğu xidmət tariflərini və şərtləri birtərəfli qaydada dəyişmək. Bu halda Bank müəyyən etmiş olduğu xidmət tariflərinin və şərtlərin dəyişdirilməsi haqqında 30 (otuz) təqvim günü əvvəlcədən yazılı formada məlumat verməlidir, dəyişiklərin heç biri müştrərinin vəziyyətini ağırlaşdırmadığı halda isə isə dəyişiklik dərhal qüvvəyə minir. Müştəri Müqavilə ilə müəyyən olunan xidmət tariflərinin və şərtlərin dəyişdirilməsi ilə razı olmadıqda, qeyd olunan xidmətin göstərilməsinə xitam verə bilər.

3.1.6. Müştəri tərəfindən Müqavilə öhdəlikləri yerinə yetirilmədikdə, Azərbaycan Respublikası Qanunlarına əsasən məhkəmələrə və digər səlahiyyətli orqanlara müraciət etmək;

3.1.7. Müvafiq Kart növü üzrə nəzərdə tutulmuş xidmət haqlarını, həmçinin də Müştəri tərəfindən ödəniləcək məbləğləri Müştərinin Bankdakı krediti, faizləri, Banka ödənilməli olan ödənişlər, üçüncü şəxslərin və Müştərinin xeyrinə verilmiş zaminliklər, qarantiyalar və/və ya digər birtərəfli öhdəliklər üzrə yaranmış borcların ödənilməsinə yönəldilən pul vəsaitlərini Müştərinin bütün hesablarından mübahisəsiz qaydada silmək;

3.1.8. VISA/MasterCard tərəfindən Chargeback (kart hesabı üzrə həyata keçən və Müştərinin hər hansı yanlış əməliyyatla bağlı əsassız varlandığı halda tələb) üzrə vəsaitlər VISA/MasterCarda geri qaytarıldıqda, həmin vəsaiti Müştərinin hesabından akseptsiz qaydada silmək;

3.1.9. ATM-də (bankomat) qalan və Müştəri tərəfindən 1 ay ərzində təhvil alınmayan plastik kartı birtərəfli qaydada ləğv etmək.

3.2. Bankın vəzifələri:

3.2.1. Müştəri tərəfindən daxil olmuş yazılı müraciətə əsasən, sənədlər Banka təqdim olunduqdan sonra Müştəriyə Kartı və müvafiq PİN-zərfi hazırlayıb 3 (üç) iş günü ərzində təqdim etmək;

3.2.2. Müştərinin müraciətinə əsasən onun "Hesab"ı üzrə çıxarışlar vermək;

3.2.3. Kart sahiblərini nağd pul vəsaitinin alınması, xidmət və malların dəyərinin Kart vasitəsilə ödənilməsi xidmətləri ilə təmin etmək;

3.2.4. Kartın itirilməsi barədə Müştəridən bu Müqavilənin V.3.4.4. yarımbəndi ilə müəyyən olunan qaydada məlumat aldıqdan sonra Kart üzrə əməliyyatları dayandırmaq;

3.2.5. Bu Müqavilə ilə üzərinə götürdüyü vəzifələri vaxtında və lazımi qaydada icra etmək və onların pozulmasına yol verməmək.

*3.3. Müştərinin hüquqları:*

3.3.1. İstifadə etmədiyi vəsaitlər Kartdan silindiyi halda, yazılı sorğu əsasında müvafiq araşdırma aparılmasını və əsassız silinmiş məbləğin geri ödənilməsini Bankdan tələb etmək;

3.3.2. Bu Müqavilənin V.3.2. bəndi ilə üzərinə götürdüyü vəzifələrin vaxtında və lazımi qaydada icra edilməsini və onların pozulmasına yol verilməməsini Bankdan tələb etmək.

3.3.3. Bankın qüvvədə olan tariflərinə uyğun Mobil bankçılıq xidmətindən istifadə etmək.

3.3.4. Kartın itirilməsi halında, onun yenisi ilə əvəz olunması barədə Banka yazılı ərizə və ya Mobil Bankçılıq xidməti vasitəsilə ilə müraciət etmək;

3.3.5. Yazılı sorğu əsasında, birbaşa şifahi müraciəti və ya Mobil bankçılıq xidməti vasitəsilə öz Hesabından hər hansı bir dövr üçün əlavə çıxarışlar və Hesabdan silinmiş məbləğlərin düzgünlüyünü təsdiq edən sənədləri tələb etmək;

3.3.6. Bankın əmanət xidmətindən istifadə etdiyi zaman, hesablanmış faiz məbləğinin kart hesabına

köçürülməsi üçün Banka müvafiq ərizə formasını doldurmaqla müraciət etmək.

3.3.7. Müqavilənin V.3.1.5. bəndinə əsasən qəbul olunan yeni xidmət tarifləri və şərtlərindən narazı olduğu halda xidməti ləğv etmək üçün Banka müraciət etmək *(Depozit (Əmanət) kartına şamil olunur).*

*3.4. Müştərinin vəzifələri:*

3.4.1. Kartın emissiya edilməsi üçün Bankın daxili qaydaları ilə müəyyən olunan sənədləri Banka təqdim etmək;

3.4.2. Bankın qüvvədə olan tariflərində nəzərdə tutulduğu halda Kartın dəyərini və müvafiq xidmət haqqını Banka ödəmək;

3.4.3. Kartın PİN-zərfi və Şifrənin məxfiliyini qorumaq;

3.4.4. Kart itirildikdə bu barədə dərhal Banka və ya Visa/MasterCard xidmət mərkəzinə yazılı, bu mümkün olmadıqda isə, şifahi məlumat vermək;

3.4.5. İtirilən "Kart" tapıldıqda dərhal bu barədə "Bank"a məlumat vermək;

3.4.6. Ödəniş kartları ilə bağlı xidmətin göstərilməsi üçün təqdim edilən sənədlərdə baş vermiş dəyişikliklər barədə bütün məlumatları 3 (üç) iş günü ərzində müvafiq təsdiqedici sənədlər qoşulmaqla dərhal Banka təqdim etmək;

3.4.7. Müqavilənin V.3.3.1. bəndində nəzərdə tutulmuş hallarda, Bankın qüvvədə olan tariflərinə uyğun xidmət haqqını, həmçinin Müştərinin dediklərinin əksi sübut olunduqda, Bankın araşdırmalara sərf etdiyi bütün xərclərini ödəmək;

3.4.8. Telefon vasitəsilə Kartla bağlı xidmət göstərilməsi üçün Banka zəng etdikdə, Şifrəni təqdim etmək və ya Müştərinin identifikasiya prosesini uğurla keçmək üçün müvafiq sualları cavablandırmaq;

3.4.9. Müqavilənin V.2.11. bəndində göstərilən halın baş verməməsinə nəzarət etmək və belə hal baş verərsə, yaranmış borcları dərhal Banka ödəmək;

3.4.10. Plastik kart ATM-də qaldıqda onu 1 ay ərzində Bankdan təhvil almaq;

3.4.11. Müqavilənin VI.2.11. bəndində göstərilən halın baş verməməsinə nəzarət etmək və belə hal baş verərsə, yaranmış borcları dərhal Banka ödəmək;

3.4.12. Əmək münasibətlərinə xitam verildikdə Bankı qabaqcadan məlumatlandırmaq;

3.4.13. Bu Müqavilə ilə üzərinə götürdüyü vəzifələri vaxtında və lazımi qaydada icra etmək və onların pozulmasına yol verməmək.

## 5. ELEKTRON İMZA VƏ ELEKTRON MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİ

### 1. Ümumi tələblər

1.1. Tərəflər bu Müqavilə üzrə Bank tərəfindən təqdim olunan xidmətlərin gələcəkdə Müştərinin Banka gəlmədən, öz şəxsiyyətinin sertifikatlaşdırılmış imza vasitələri ilə müəyyən olunaraq sifariş olunmasının mümkünlüyü barədə razılığa gəlirlər.

1.2. Tərəflər qəbul edirlər ki, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, həmçinin, "Elektron imza və elektron sənəd haqqında" AR Qanununa əsasən, Müştəriyə sertifikat xidmətləri Mərkəzi tərəfindən veriləcək elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir.

1.3. Müştəri, elektron imza yaratma məlumatlarının və imza vasitələrinin qorunmasına cavabdehdir və onların digər şəxs tərəfindən istifadəsinə yol verməməlidir. Bunlar üzərində nəzarət itirildikdə və ya buna təhlükə yarandıqda imza sahibi müvafiq Mərkəzə və Banka dərhal xəbər verməli və sertifikatın qüvvəsinin dayandırılmasını tələb etməlidir.

1.4. Bank, Müştərinin elektron imza yaratma məlumatlarının və imza vasitələrinin üçüncü şəxslər tərəfindən istifadəsi və ya oğurlanması halında yarana biləcək itkilərə görə Müştəri qarşısında heç bir məsuliyyət daşımır.

1.5. Hazırki bölüm, Tərəflər arasında münasibətlərin elektron qaydada tənzimlənməsi üzrə ümumi şərtləri əks etdirməklə, gələcəkdə bu münasibətlər üzrə şərtlərin hazırki Müqaviləyə Əlavə edilməsini nəzərdə tutur.

1.6. Tərəflər qəbul edirlər ki, elektron münasibətlər çərçivəsində, Müştərinin elektron imzasının onun əl imzası ilə bərabər hüquqi qüvvəyə malik olmasından irəli gələrək, hazırki Müqaviləyə ediləcək əlavə və dəyişiklikləri Müştərinin elektron imzası ilə təsdiq olunduğu halda qəbul olunmuş hesab olunacaq və həmin andan qüvvəyə minəcək.

## 6. DİGƏR ŞƏRTLƏR

### 1. Müqavilənin qüvvədə olma müddəti və onun vaxtından əvvəl ləğv edilməsi

1.1. Bu Müqavilə onun şərtlərinin qəbul edilməsinin Müştəri tərəfindən imza, hüquqi şəxs olduqda həmçinin möhürü ilə, yaxud gücləndirilmiş elektron imza ilə təsdiqləndiyi andan qüvvəyə minir.

1.2. Bu Müqavilə qeyri-müəyyən müddətə bağlanır.

1.3. Bu Müqavilənin ləğv olunduğu halda tərəflər bir-birləri qarşısında Müqavilə üzrə bütün öhdəliklərini icra etmiş olmalıdırlar.

1.4. Müqaviləyə aşağıdakı hallarda və qaydada xitam verilə bilər:

1.4.1. Tərəflərin qarşılıqlı yazılı razılığına əsasən;

1.4.2. Müştəri tərəfindən - onun “Bank hesabının bağlanması üçün ərizə”si üzrə istənilən vaxt, bir şərtlə ki, Müştərinin Bank qarşısında hazırki Müqavilə üzrə təqdim olunan xidmətlər üzrə heç bir öhdəliyi olmasın;

1.4.3. Bank tərəfindən - Müştəri hazırki Müqavilə üzrə ona təqdim olunan xidmətlərin heç birindən 1 (bir) il ərzində istifadə etmədiyi halda, sonuncunu 30 (otuz) təqvim günü qabaqcadan yazılı formada xəbərdar etmək şərti ilə;

1.4.4. Bank tərəfindən – Məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi olduqda;

1.4.5. Bank tərəfindən - Müştəri öldükdə, ölmüş və ya itkin düşmüş elan olunduqda;

1.4.6. Bank tərəfindən –Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə nəzərdə tutulan digər hallarda və ya Müştərini 30 (otuz) təqvim günü qabaqcadan yazılı formada xəbərdar etmək şərti ilə Bankın komplayns siyasətinin tələblərinə əsasən daxili qərar əsasında birtərəfli qaydada;

1.4.7. Bank tərəfindən - Müştərini 30 (otuz) təqvim günü qabaqcadan yazılı formada xəbərdar etmək şərti ilə Müqavilənin II.4. bəndində qeyd olunan halların müəyyənləşdirilməsi üçün Müştəri 15 (on beş) təqvim günü ərzində özünün mülkiyyət strukturunu təsdiq edən sənədlərin qüvvədə olmasını təsdiq edən məlumatları və ABŞ və ya digər xarici dövlət əlamətlərinin müəyyən olunmasına aid tələb olunan formaları və digər sənədləri ( müvafiq olaraq W9 və W8 BEN formaları daxil) Banka təqdim etmədiyi təqdirdə birtərəfli qaydada;

1.4.8. Bank tərəfindən – Müştərinin özünə, ona aidiyyatı şəxslərə rezidenti olduğu və ya hər hansı əlaqəsi olduğu ölkəyə Azərbaycan Respublikası, digər xarici dövlət və ya hər hansı beynəlxalq və/və ya regional təşkilat tərəfindən sanksiya qoyulduqda Müştərini 30 (otuz) təqvim günü qabaqcadan yazılı formada xəbərdar etmək şərti ilə.

1.4.9. Bu Müqavilə və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə nəzərdə tutulan digər hallarda.

1.5. Müştəri qəbul edir ki, onun Ümumi Şərtlər Toplusu ilə təqdim olunan xidmətlər üzrə nümayəndəsi bu xidmətlərin təqdim olunması üçün Bankın tələb etdiyi sənədlər üzrə məlumatları təqdim etməyə səlahiyyətli olub, tətbiq olunduğu halda müvafiq sənədlərin imzalanması üçün razılıq və icazəni almışdır.

### 2. Fors-major hallar

2.1. Fors-major (daşqın, uçqun, sel, yanğın, yer sürüşməsi, silahlı iğtişaşlar və s.) hallarında tərəflər müqavilə şərtlərinin tam və ya qismən yerinə yetirilməməsinə görə bir-biri qarşısında heç bir maddi və

digər məsuliyyət daşımırlar. Həmin halların mövcud olduğu müddət ərzində müqavilənin icrası mümkün olmadıqda onun icrası həmin müddətə dayandırılır.
2.2. Fors-major hadisəsinə məruz qalmış Tərəf dərhal, Fors-major hadisəsinin baş verməsindən ən geci 5 (beş) təqvim günü sonra digər Tərəfə yazılı məlumat verməlidir.
2.3. Əgər Fors-major halı 6 (ay) aydan çox davam edərsə, Tərəflərdən biri digər Tərəfə yazılı məlumat verməklə hazırkı Müqaviləyə vaxtından əvvəl xitam vermək hüququna malikdir.

## 3. Mübahisələrin həlli

3.1. Bu müqavilənin icrası ilə əlaqədar tərəflər arasında yaranmış mübahisələr qarşılıqlı razılıqla həll edilir. Qarşılıqlı razılıqla həll edilməyən mübahisələr Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının müvafiq məhkəmələri vasitəsilə həll ediləcəkdir.
3.2. Bu Müqavilə ilə tənzimlənməyən münasibətlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi və digər normativ-hüquqi aktlar ilə tənzimlənir.
3.3. Tərəflərdən hər hansı birinin təşəbbüsü ilə mübahisələr məhkəmədənkənar qaydada mediasiya sessiyasında həll edilə bilər.

## 4. Müraciətlərə baxılması

4.1. Müştəri Banka öz müraciətlərini (şikayət, ərizə və təklif) yazılı və şifahi şəkildə edə bilər.
4.2. Yazılı müraciətlər Bankın internet səhifəsindən, elektron poçt və ya məktub vasitəsilə edilə bilər.
4.3. Bank Müştəri tərəfindən şikayətin daxil olduğu tarixdən 7 (yeddi) iş günü müddətində müraciətə baxır və nəticəsi barədə Müştərini məlumatlandırır. Müraciətə baxılması bu müddətdə mümkün olmadığı halda həmin müddətdən gec olmayaraq şikayətə baxılması müddətinin artırılmasının səbəblərini əsaslandırmaqla şikayətə baxılması müddəti barədə Müştəriyə məlumat verir. Banka şikayətin verilməsi Müştərinin məhkəməyə şikayət vermək hüququnu məhdudlaşdırmır.
4.4. -
4.5. Bank xidmətləri üzrə müraciətlər aşağıda qeyd olunan rekvizitlər üzrə qəbul olunur:

Müştərilərin şikayətlərinin araşdırılması funksiyasını həyata keçirən struktur bölmə
qısa nömrə: *9123
tel.: (+994 12) 496 50 00
faks: (+994 12) 496 50 10
e-poçt: customer.care@pashabank.az
http://www.pashabank.az/customer_care/lang,az/
ünvan: Mərkəzi Bulvar küçəsi 99, Xətai rayonu, AZ1025, Bakı, Azərbaycan.

## 5. Yekun şərtlər

5.1. Bank Müştərinin hesabdakı pul vəsaitindən istifadə edilməsinə və/və ya onun hesabda olmasına görə Müştəriyə faiz ödəmir.
5.2. Tərəflər təsdiq edirlər ki, müvafiq xidmətin göstərilməsi üçün lazım olan bütün sənədlər müvafiq Ərizə forması ilə birlikdə Banka təqdim edilmişdir.
5.3. Müqavilədə xüsusi olaraq qeyd olunmuş hallar istisna olmaqla, bu Müqaviləyə bütün əlavələr və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığına əsasən həyata keçirilir və hər iki tərəfin imza və möhürü olan tərəfin möhürü, yaxud Tərəflərin gücləndirilmiş elektron imzaları ilə təsdiq edildikdən sonra qüvvəyə minir.
5.4. Bu Müqavilə üzrə nəzərdə tutulan xidmətlər çərçivəsində Müştəri Banka Azərbaycan manatında hər hansı bir faiz, komissiya və ya digər xidmət haqqı ödəməli olduğu təqdirdə, müştərinin əlavə yazılı göstərişi olmadığı müddətcə, onun Azərbaycan manatında olan istənilən hesabından akseptsiz qaydada silinir. Müştəri Banka Azərbaycan manatından digər valyutada hər hansı bir faiz, komissiya və ya digər xidmət haqqı ödəməli olduğu təqdirdə:

a. Müştərinin hər-hansı yazılı göstərişi olmadığı müddətcə, onun müvafiq valyuta hesabında yetərli məbləğ olduğu təqdirdə həmin hesabdan akseptsiz qaydada tutulur;
b. Müştərinin müvafiq valyuta hesabında yetərli məbləğ olmadığı təqdirdə, onun manat hesabından həmin günə Bankın müvafiq valyuta üzrə müəyyən etdiyi kommersiya məzənnəsi ilə tutulur;
c. Öhdəliyin yarandığı gün Müştərinin heç bir hesabında yetərli məbləğ olmadığı təqdirdə, vəsait hesaba daxil olduqdan sonra ödəniş VIII.5.4.a və ya VIII.5.4.b bəndlərində müəyyən olunan qaydada icra olunur.

5.5. Hazırki Müqavilə çərçivəsində Müştəriyə Bank tərəfindən məktub, elektron poçt ünvanı (e-mail), faks, sms və İnternet Bank xidməti ilə göndərilən məlumat yazılı xəbərdarlandıq hesab olunur

5.6. Bu müqaviləyə edilən bütün əlavə və dəyişikliklər onun ayrılmaz tərkib hissəsini təşkil edir.

5.7. Hazırki Müqavilə hər tərəf üçün bir nüsxə olmaqla, iki eyni qüvvədə olan nüsxədə hazırlanmışdır (gücləndirilmiş elektron imza ilə imzalandığı hallar üçün şamil edilmir).

5.8. Bank tərəfindən Müştəridən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı hüquqpozmaların aşkar edilməsi və qarşısının alınması məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada hesab üzrə əməliyyatlara dair məhdudiyyətlər və ya xüsusi tələblər müəyyən edilə bilər.

5.9. Müştəri bu Müqavilə ilə zərurət olduğu təqdirdə lazımi fərdi məlumatlarının "Fərdi məlumatlar haqqında" AR qanununun tələblərinə müvafiq olaraq Bank tərəfindən üçünü şəxslərə ötürülməsinə razı olduğunu bildirir.

5.10. Bu Müqavilənin hər hansı bir bəndinin etibarsız hesab edilməsi müqavilənin bütövlükdə etibarsız hesab edilməsinə səbəb olmur.

5.11. Bank Müştəriyə daha geniş istiqamətdə xidmət göstərmək üçün Müştəri barədə fərdi məlumatları ona heç bir zərər vurmamaq, habelə yayılmaması üçün məsuliyyət daşımaqla müxtəlif informasiya ehtiyatlarından əldə edə, saxlaya, emal edə, arxivləşdirə, habelə Müştərinin bank sirri təşkil edən məlumatlarını öz işçilərinə, nümayəndələrinə, ona hüquqi və digər xidmət göstərən digər şəxslərə, özünə aidiyyəti olan şəxslərə, bank fəaliyyətini həyata keçirərkən ondan tələb edən dövlət orqanlarına, maliyyə bazarlarına nəzarəti həyata keçirən orqanlara ölkədaxili və ya transsərhəd qaydada ötürə bilər və bu məlumatların ötürülməsi üçün Müştərinin əlavə razılığı tələb olunmur. Bu halda Bank məlumatı ötürdüyü şəxslərin həmin məlumatları məxfi saxlamağına dair birbaşa özü məsuliyyət daşıyır.

5.12. Müştəri imzalamalı olduğu sənədi "Müştərinin qeydiyyat Ərizəsi"ndə qeyd edilən əlaqə vasitəsi ilə skan edərək Banka təqdim edə bilər. Bu halda yarana biləcək bütün hallara görə məsuliyyət Müştərinin üzərinə düşür.

5.13. Müştəri özü, həmçinin onun adından imzalayan şəxs "ASAN Finans" sistemi vasitəsilə Şəxsiyyət vəsiqəsi və iş yeri üzrə müəyyən olunan məlumatların Banka təqdim olunmasına özü tərəfindən bu razılıq geri götürülmədiyi təqdirdə, Bank ilə müqavilə münasibətlərinə xitam verilənə və/və ya onun qarşısında öhdəlikləri tam icra olunan müddətədək təqdim olunmasına razılıq verir.

5.14. Müştərinin Banka təqdim etdiyi əlaqə vasitəsi, habelə Müştərinin şəxsiyyətini təsdiq edən sənədin FİN-i və ya kartının 16 rəqəmi ilə qeydiyyatdan keçdiyi Bankın Mobil proqram tətbiqi ilə Banka ünvanlanan müraciətlər birbaşa Müştəri tərəfindən edilmiş hesab edilir. Bu səbəbdən həmin əlaqə vasitələrindən gələn müraciətləri qəbul etməmək barədə Müştəri Banka məlumat verənədək müraciətlər müştəridən gəlmiş hesab edilir və buna görə yaranacaq mübahisəyə və zərərə görə məsuliyyət Banka aid deyildir.

5.15. Müştəri Banka birdən artıq əlaqə vasitəsi qeyd edərsə, qeyd etdiyi əlaqə vasitələrindən hər hansı birinin dəyişməsi barədə digər əlaqə vasitəsi üzrə yazılı qaydada Banka müraciət edə bilər. Bu zaman dəyişmiş əlaqə vasitəsi müvafiq məlumat daşıyıcısında qeyd olunmuş əlaqə vasitəsinə bərabər tutulur.

5.16. Bu Şərtlər Toplusu və onun çərçivəsində bağlanan əqdlər hər bir hal üzrə Tərəflərin qarşılıqlı razılığı ilə mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyi ilə imzanın faksimilesindən, elektron imzadan və ya şəxsi imzanın başqa analoqundan, o cümlədən rəqəmsal alətlər vasitəsilə təsdiq, habelə elektron sənəd mübadiləsi üsulundan istifadə etməklə imzalana bilər. Bu qaydada imzalanmış sənəd əsl əl imzası ilə imzalanmış kimi qəbul ediləcək.

5.17. Müştəri imzanın faksimilesindən istifadə edəcəyinə dair və ya konkret situasiyada istifadə etməsinə dair qabaqcadan Banka məlumat verməlidir.

5.18. Bank imzanın faksimilesi ilə imzalanmış sənədin qəbulundan imtina edə bilər.

5.19. Müştəri imzanın faksimilesi ilə imzalanmış sənədin Bank tərəfindən icrası ilə bağlı özünə və/və ya Banka, o cümlədən üçüncü şəxslərə dəyən bütün ziyana görə tam şəkildə məsuliyyət daşıyır.